www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 may 2016-cı il Çərşənbə № 113 (6434) Qiyməti 60 qəpik

**Xəbər**

## Həbsdəki MTN generalı haqda yeni sensasion iddia

yazısı səh.12-də

**Gündəm**

### Qarabağın xilası üçün ən uyğun zaman



Azərbaycan və Ermənistan böyük savaşa hazırlıq görür; Rusiyanın dünyada təklənməsi torpaqların xilası üçün şans yaradır

yazısı səh.5-də

### Sərkisyan amerikalı muzdluları Qarabağa gətirir

yazısı səh.10-da

### Bu gün rus qoşunlarının Azərbaycandan çıxarıldığı gündür

yazısı səh.11-də

### Müsavat başqanı müavininin cəzası 3 il yarım azaldıldı

yazısı səh.6-da

### Hakimiyyət və müxalifət düşərgələrində 28 may hazırlıqları

yazısı səh.6-da

### Eks-deputatın qardaşı oğlunun həbsinə hazırlıq gedir

yazısı səh.12-də

### AG Partiyanın qurultayı təxirə salındı

yazısı səh.6-da

### Siyavuş Novruzov müxalifəti passivlikdə qınadı

yazısı səh.4-də

### Zaqatalada quduz it dişləyən 3 uşaq anası ölüm ayağında

yazısı səh.2-də

### Sabiq məmurun oğlu vəhhabilərə niyə üç milyon avro verib?-şok təfərrüat

yazısı səh.7-də

### SOS: "Pomidor yeməyin, öldürür..."

yazısı səh.15-də

### Türkiyə ilə Avropa Birliyi gizli savaşda

yazısı səh.8-də

## İsrail və İrana iki rəsmi şəxsin kritik səfərinin arxasındakı tək motiv

# AZƏRBAYCAN QARABAĞ PLANINA BEYNƏLXALQ DƏSTƏK AXTARIŞINDA - İŞĞALÇININ TƏCRİDİ GÜCLƏNİR

Müharibə ehtimalının gündəmdə olması Ermənistanı öncə diplomatiya savaşında məğlub etməyi və təkləməyi diktə edir; Tehran və Təl-Əvivdən Bakıya qiymətli Qarabağ dəstəyi - "Torpaqlar sahibinə qaytarılmalıdır..."




yazısı səh.9-da

## "Hafka" milyonlarını da itirdi, klubunu da...

Fransa məhkəməsi "Lans"ı rəsmən Hafiz Məmmədovdan aldı; klubun yeni sahibləri arasında erməni əsilli livanlı da var

yazısı səh.7-də



*Pənah Hüseyn:*

### "Belə vəziyyət uzun müddət davam edə bilməz"

yazısı səh.4-də



### Ramiz Mehdiyev Çeçenistana niyə getdi?

yazısı səh.3-də



Əlixan Musayev

### Sələfilərin Bakıdakı lideri İŞİD-ə dəstək ittihamlarından danışdı

yazısı səh.10-da




# Ərdoğan Türkiyənin 65-ci hökumətinin tərkibini təsdiqlədi

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan hakim Ədalət və İnkişaf Partiyasının sədri Binəli Yıldırımın təqdim etdiyi yeni hökumətin tərkibini təsdiqləyib.**

Virtualaz.org xəbər verir ki, prezidentin təsdiqləməsindən sonra Türkiyənin 65-ci hökumətinin tərkibi açıqlanıb.

Nazirlər Kabinetinin tərkibinə 10 dəyişiklik var. Onlardan bəzilərinin vəzifəsi dəyişdirilib, bəziləri isə hökumətin tərkibinə yeni daxil edilib. 65-ci hökumətin tərkibi aşağıdakı kimidir:

Baş nazir - Binəli Yıldırım

Baş nazirin müavinləri - Nurettin Canikli, Mehmet Şimşek, Numan

Kurtulmuş, Yıldırım Tuğrul Türkeş, Veysi Kaynak

Ədliyyə naziri - Bəkir Bozdağ

Ailə və sosial təminat naziri - Fatimə Beytül Sayan Kaya

Xarici işlər naziri - Mövlud Çavuşoğlu

Daxili işlər naziri - Efkan Ala

Energetika və təbii sərvətlər naziri - Berat Albayrak

Səhiyyə naziri - Rəcəb Akdağ

İqtisadiyyat naziri - Nihat Zeybəkçi

Maliyyə naziri - Naci Ağbal

Ərzaq, kənd təsərrüfatı və heyvandarlıq naziri Faruk Çelik

Əmək və sosial təminat naziri - Süleyman Soylu

Gömrük və ticarət naziri - Bülənt Tüfənkçi

Milli müdafiə naziri Fikri İşıq

Nəqliyyat, dənizçilik və kommunikasiya naziri- Əhməd Arslan

Təhsil naziri- İsmət Yılmaz

Mədəniyyət və turizm naziri - Nabi Avçı

İnkişaf naziri - Lütvi Elvan

Avropa İttifaqı naziri - Ömər Çelik

Gənclər və idman naziri- Akif Çağatay Kılıç

Ətraf mühit və şəhərsalma naziri- Mehmet Özhaseki

Meşə və su məsələləri naziri - Veysəl Əroğlu

Elm, sənaye və texnologiya naziri - Faruk Özlü

Yeni hökumətin tərkibi bu gün Türkiyə Böyük Millət Məclisində səsverməyə təqdim ediləcək. Bundan sonra 65-ci hökumət fəaliyyətə başlayacaq.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Azəriqaz"ın səlahiyyətləri iki nazirlik arasında bölüşdürüldü

**"Azəriqaz" İstehsalat Birliyinin səlahiyyətlərinin bir qismi Fövqəladə Hallar Nazirliyi (FHN) və Energetika Nazirliyi (EN) arasında bölüşdürülüb.**




"Azəriqaz" İB-dən modern.az-a daxil olan məlumata görə, baş nazir Artur Rəsizadənin imzaladığı qərara əsasən, mayın 24-dən etibarən Birliyin Qaz kəmərlərinə və cihazlarına texniki xidmət sahəsi öz fəaliyyətini dayandırıb. Qurumun işçiləri isə struktura daxil olan digər bölmələrdə müvafiq işlərlə təmin edilib.

"Azəriqaz" İB-in mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalayev faktı təsdiqləyib. O bildirib ki, heç bir işçi ixtisar olunmayıb: "Qaz kəmərlərinə və cihazlarına texniki xidmət sahəsinin əməkdaşları mütəmadi olaraq mənzillərə texniki baxış keçirib. Təkcə ötən ay ərzində əməkdaşlarımız tərəfindən 78 534 mənzilə texniki baxış keçirilib.

Nazirlər Kabinetinin "Qazdan istifadə Qaydaları"nda dəyişikliklər edilməsi barədə müvafiq qərarından sonra xidmətə nəzarət Fövqəladə Hallar Nazirliyi və Energetika Nazirliyinə verilib. Yəni mənzillərə texniki baxışın keçirilməsi "Azəriqaz" tərəfindən deyil, qeyd edilən nazirliklər tərəfindən aparılacaq. Bura qaz avadanlıqları, tüstü bacaları və s. nəzarət daxildir".

"Qazdan istifadə Qaydaları"nda dəyişikliyə əsasən, FHN-in və EN-in səlahiyyətli nümayəndələri istehlakçını 5 iş günü əvvəl məlumatlandırmaqla qazdan səmərəli istifadəni, məişət qaz qurğularının təhlükəsiz və etibarlı istismar edilməsini təmin etmək məqsədilə həmin qurğulara, tüstü bacalarına və qazpaylayıcı şəbəkəyə altı ayda bir dəfədən az olmayaraq texniki baxış keçirilməsini təmin etməlidirlər.

Həmçinin baş verən yanğının və ya qaz sızmasının qarşısının alınması və digər qəza işlərinin görülməsi halları istisna olmaqla, digər hallarda istehlakçı FHN-in və EN-in səlahiyyətli nümayəndələrini, onların təmsil etdiyi orqanın qazlaşdırılmış əraziyə və (və ya) yaşayış sahəsinə daxil olmaq icazəsi və səbəbi haqqında yazılı sənədin əslini və xidməti vəsiqələrini təqdim etdikləri təqdirdə, texniki baxışın keçirilməsi üçün ona məxsus qazlaşdırılmış obyektə daxil olmasını təmin etməlidir.

FHN-in və EN-in səlahiyyətli nümayəndələri texniki baxışın nəticələrini 2 nüsxədən ibarət aktla rəsmiləşdirməli və aktın bir nüsxəsini mütləq istehlakçıya təqdim etməlidirlər. İstehlakçı bu barədə xüsusi kitabda öz imzası ilə həmin sənədin alınmasını təsdiq etməlidir.

## Zakir Həsənov İspaniyaya getdi

**Mayın 24-dən Azərbaycan müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinin İspaniya Krallığına rəsmi səfəri başlayıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən virtualaz.org-a verilən məlumata görə, səfər çərçivəsində İspaniyanın müdafiə və xarici işlər nazirləri ilə görüşlərin keçirilməsi, eləcə də hərbi hissə və hərbi sənaye kompleksinə dəxil olan şirkətlərin ziyarət olunması nəzərdə tutulur.

Səfər mayın 26-dək davam edəcək.

## Azərbaycandan aparılan süd məhsulları Rusiyaya buraxılmadı

**Rusiyanın kənd təsərrüfatı mallarına dövlət nəzarəti xidmətinin ("Rosselxoznadzor") Moskva və Tula vilayətləri üzrə idarəsinin əməkdaşları Azərbaycandan gətirilən təxminən 19 ton süd məhsulunu sənədlərdə olan qayda pozuntuları ilə əlaqədar saxlayıblar.**

Bu barədə Rusiyanın kənd təsərrüfatı mallarına dövlət nəzarəti xidməti məlumat yayıb.

Məlumatda bildirilir ki, xidmətin Moskva və Tula vilayətləri üzrə idarəsi Azərbaycandan gətirilən 18,7 ton süd məhsullarının rəsmiləşdirilməsini dayandırıb.

Veterinar yoxlama zamanı Azərbaycan veterinar sertifikatının xüsusi kağızın istifadə olunmadığı blankda, nişanların və digər müdafiə dərəcələrinin olmadan hazırlandığı aşkar edilib.

Saxlanılan yük təcrid edilmiş məhsulların müvəqqəti saxlama yerinə yerləşdirilib.

## İyulda Azərbaycan, Gürcüstan və Türkiyənin müdafiə nazirlərinin görüşü keçiriləcək

**"Bu ilin iyul ayında Gürcüstanda Azərbaycan, Gürcüstan və Türkiyənin müdafiə nazirlərinin növbəti, üçtərəfli görüşü keçiriləcək. Bu görüşdə regional və qlobal təhlükəsizliyə, üçtərəfli əməkdaşlığa dair bir sıra mühüm məsələlər müzakirə ediləcək. Hazırda növbəti görüşün bəzi detalları üzərində iş gedir".("Report").**

Bunu Gürcüstanın müdafiə naziri Tinatin Xidaşeli jurnalistlərə müsahibəsində söyləyib.

"Biz Azərbaycan və Türkiyə ilə müdafiə sahəsində çox səmərəli əməkdaşlıq edirik. Bu günlərdə Azərbaycanda üçtərəfli görüşümüz oldu və biz çox mühüm məsələləri müzakirə etdik. Düşünürəm ki, bu cür görüşlər hərbi sahədə əlaqələrimizi daha da möhkəmləndirəcək və inkişaf etdirəcək", - nazir deyib.

## Azərbaycandan sığınacaq istəyən Türkiyə vətəndaşı BQXK nümayəndəsi ilə görüşüb

**12 il əvvəl Türkiyədə cinayət törətməkdə təqsirləndirilərək Azərbaycanda həbs edilən Mehmet Halil oğlu Sünmez ekstradisiyası ilə bağlı məhkəmə qərarından apelyasiya şikayəti verib.**

Bu barədə "Report"a onun vəkili Vasif İsrafilov bildirib.

Vəkilin sözlərinə görə, apelyasiya şikayəti Bakı Apelyasiya Məhkəməsinə təqdim edilib.

Bundan başqa, V.İsrafilov bildirib ki, M.Sünmez Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndəsi ilə görüşüb: "Hüquqlarını müdafiə etdiyim Mehmet Sünmez Azərbaycandan sığınacaq istəyir. O, ölkəsinə - Türkiyə Respublikasına ekstradisiya olunmaq istəmir".

Qeyd edək ki, hadisə 2004-cü il noyabrın 24-də baş verib. Türkiyənin Turgutlu - Manisa avtomobil yolunun 5-ci km-də, su kanalının kənarında şəxsiyyəti məlum olmayan meyit tapılıb. Meyit tamamilə çürüməyə məruz qalıb. Aparılan təhqiqat nəticəsində mərhumun şəxsiyyətinin Meltem Putak olduğu və İzmir 9 Eylul Universiteti Ekonometrika fakültəsində təhsil aldığı müəyyənləşib. Hadisədən sonra M.Putakın tanışı, 1974-cü il təvəllüdlü Yılmaz Akbaba bu cinayətin törədilməsində şübhəli şəxs qismində göstərilib və onun barəsində qiyabi həbs qərarı çıxarılıb. Lakin onun həbsi mümkün olmayıb. 2015-ci ildə həmin qərar yenilənib və Y.Akbaba beynəlxalq axtarışa verilib. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Azərbaycan ərazisində Y.Akbabanın 1978-ci il təvəllüdlü Mehmet Halil oğlu Sünmez adı ilə yaşadığı müəyyən edilib və o, 2016-cı il martın 17-də Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) əməkdaşları tərəfindən tutulub. Səbayel Rayon Məhkəməsi onun barəsində iki ay müddətinə həbs-qətimkan tədbiri seçib. Y.Akbaba (Mehmet Sünmez) barəsində Türkiyə Respublikası 1-ci Manisa Ağır Cəza Məhkəməsi tərəfindən həbs edilməsi haqqında qərarın olması və Türkiyə Respublikasına ekstradisiya olunacağını nəzərə alaraq, Mehmet Sünmezin vəkili Vasif İsrafilov onun barəsində dörd ay müddətinə həbs-qətimkan tədbirinin seçilməsi üçün apelyasiya şikayəti verib. Lakin Bakı Apelyasiya Məhkəməsi Səbayel Rayon Məhkəməsinin qərarını qüvvədə saxlayıb. O, ittihamları rədd edib, Y.Akbaba olmadığını bildirib.

Mayın ayının 4-də Bakı Ağır Cinayətlər Məhkəməsində M.Sünmezin ekstradisiyası ilə bağlı iş üzrə məhkəmə iclası keçirilib. Hakim Fikrət Qəribovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Məhkəmə M.Sünmezin Türkiyə Respublikasına verilməsi barədə qərar qəbul edib.



## Bu gün Sabir Rüstəmxanlının 70 illik yubileyi təntənəli şəkildə qeyd olunacaq

**Mayın 25-də xalq şairi, sabiq deputat, VHP sədri Sabir Rüstəmxanlının 70 illik yubileyi Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında təntənəli şəkildə keçiriləcək. Yubiley tədbiri Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə baş tutacaq. Tədbirdə dövlət rəsmilərinin, mədəniyyət və incəsənət xadimlərinin, şair və yazıçıların, eləcə də media nümayəndələrinin iştirakı gözlənilir. Yubiley tədbiri saat 19:00-da başlayacaq.**

❑ Nərgiz LİFTİYEVA

## Zaqatalada quduz it dişləyən 3 uşaq anası ölüm ayağında

**Aprelin əvvəlində sahibsiz itin dişlədiyi 47 yaşlı Zaqatala sakini Pəri Turacovada quduzluq xəstəliyi aşkarlanıb. Telekanalların yaydığı xəbərə görə, Zaqatalanın Faldarlı kənd sakini, 1969-cu il təvəllüdlü, 3 uşaq anası Pəri Qasım qızı Turacovanı aprel ayının əvvəlləri yaşadığı kəndin ərazisində naməlum it dişləyib. İt dişləməsindən sonra Pəri Turacova hadisə barədə xəstəxanaya müraciət etməyib və buna əhəmiyyət verməyib.**

Bir müddətdən sonra vəziyyəti ağırlaşan qadın Rayon Mərkəzi Xəstəxanasına müraciət edib. Xəstəni "Quduzluq xəstəliyinə şübhəli" diaqnozu ilə ətraflı müayinə və müalicə etmək üçün təcili mütəxəssis həkimlər çağırılıb və xəstə RMX-nin Yoluxucu Xəstəliklər Şöbəsinə yerləşdirilib. Hadisə ilə bağlı rayona ezam olunan ixtisaslaşmış həkim xəstəni müayinə edərək, onun xüsusi rejimli palatada saxlanılaraq simptomatik müalicəsinin davam etdirilməsini tövsiyə edib.

Hazırda Pəri Turacovanın müalicəsi Zaqatala RMX-nin yoluxucu xəstəliklər şöbəsində davam etdirilir. Xəstəxanadan bildirildiyinə görə qadında quduzluq əlamətləri get-gedə şiddətlənir, o sudan və havadan qorxur, tənəffüs çatışmazlığı müşahidə edilir, aqressivliyi artır. Rayon xəstəxanasının həkimləri deyirlər ki, ilk dəfədir quduzluğa yoluxmuş xəstə ilə qarşılaşırlar. Respublika Taun Əleyhinə Stansiyanın şöbə müdiri Rita İsmayılovanın virtualaz.org-a bildirdiyinə görə, bu xəstəlikdən sağalmaq mümkün deyil və xəstəliyin inkubasiya dövrü 14 gündən başlayaraq 1 ilə qədər çəkə bilər.

YENİ MÜSAVAT
N 113 (6434) 25 may 2016

**Çeçenistan Respublikasının paytaxtında təhlükəsizlik məsələlərini kurasiya edən dünya dövlətlərinin nümayəndələrinin VII beynəlxalq görüşü keçirilir. Foruma dünyanın 70-dən çox ölkəsinin təmsilçiləri gəlib. Çeçenistan aşçısının və hökumətinin mətbuat xidmətindən virtualaz.org-a verilən məlumata görə, tədbir iştirakçıları arasında təhlükəsizlik şuralarının katibləri, nazirlər, prezident köməkçiləri və milli təhlükəsizlik üzrə nazirlər, xüsusi xidmət orqanlarının rəhbərləri var.**

# Ramiz Mehdiyev TŞ rəhbərlərinin Çeçenistandakı toplantısına getdi

## Foruma dünyanın 70-dən çox ölkəsinin təmsilçiləri gəlib



Azərbaycanı konfransda Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və administrasiyanın hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov təmsil edirlər.

Rusiya Təhlükəsizlik Şurasının nümayəndə heyətinə katib Nikolay Patruşev başçılıq edir.

Rusiya prezidenti Vladimir Putin bəyan edib ki, Moskva terrorla mübarizə yolunda ən sıx beynəlxalq qarşılıqlı əməkdaşlığa hazırdır.

TASS xəbər verir ki, bu barədə V.Putinin Qroznı şəhərində keçirilən Təhlükəsizlik məsələlərinə nəzarət edən yüksək vəzifəli nümayəndələrin 7-ci beynəlxalq görüş üçün açıqlamasında deyilir.

Rusiya dövlət başçısı bəyan edib ki, Kreml terrorizmlə mübarizədə bütün istiqamətlər üzrə - həm ikitərəfli, həm çoxtərəfli formatlarda əməkdaşlığa hazırdır.

V.Putin deyib ki, görüşdə 75 ölkənin və BMT-nin nümayəndə heyətinin iştirakı sübut edir ki, beynəlxalq ictimaiyyət partnyorluğun möhkəmlənməsi və qlobal təhdidlərə müqavimət yolunda mübarizədə ciddi yanaşma nümayiş etdirir.

İki gün ərzində forum iştirakçıları ekstremizm və terrorçuluğa qarşı mübarizə, regional və beynəlxalq təhlükəsizliyin təmin olunması, miqrasiya prosesləri, beynəlxalq informasiya təhlükəsizliyi sisteminin yaradılması məsələlərini müzakirə edəcəklər.

Təhlükəsizlik şuralarının nümayəndələrinin görüşləri çərçivəsində Nikolay Patruşev Azərbaycan nümayəndə heyətinin rəhbərliyi ilə də görüş keçirib.

Qeyd edək ki, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev həm də Azərbaycan Təhlükəsizlik Şurasının katibidir.

Ekspertlərə görə, tədbirdə əsas müzakirə məsələlərindən biri terrorizmə qarşı mübarizə ilə bağlıdır. Hazırda İŞİD terror təşkilatının tərkibində çoxsaylı çeçen vətəndaşlarının vuruşduğunu, bölgədə bunun ciddi təhlükələrinin olduğunu nəzərə alan ekspertlər səfərdə bu məsələnin də əsas müzakirə mövzularından biri olacağını düşünürlər.

**Politoloq Qabil Hüseynli dedi ki, tədbirdə bölgədə terrorizmə qarşı mübarizə əsas müzakirə mövzusu olacaq:** “Məlumdur ki, Şimali və Cənubi Qafqazda vəhhabizm geniş yayılıb. Digər tərəfdən, Azərbaycanda vəhhabizm və digər təhlükəli cərəyanları formalaşdıran insanlar adətən Çeçenistan, Dağıstan və digər ərazilərdən gəlirlər. Azərbaycanın Təhlükəsizlik Şurasının katibi Ramiz Mehdiyevin bu məsələləri müzakirə edəcəyi gözləniləndir. Hazırda İŞİD-in sıralarında vuruşanların müəyyən qismi çeçen əsillidir. Onların içərisində hətta bəzi səhra komandirləri də var ki, İŞİD-in əsas vuran qolu hesab olunurlar. İŞİD-ə qarşı böyük əməliyyatlar hazırlanır. Təmizləmə əməliyyatından sonra onların sağ qalanları Cənubi Qafqaza, daha çox da Şimali Qafqaza qaçacaqlar. Onların içərisində əsas yeri çeçenlərin dağlıq əraziləri tutacaq. Bu səfərdə qaçan İŞİD-çilərin neytrallaşdırılması, təhlükəsizlik orqanlarının birgə fəaliyyəti olacaq”.

❑ Cavanşir ABBASLI

## Kadırov: “Rusiya ilə zarafat etmək olmaz”


Ramzan Kadırov

**Rusiya istənilən terror təhlükəsinə cavab verə biləcək, lakin quldur planları hazırlayanlar onları həyata keçirmək istəməsələr yaxşıdır. "RİA Novosti" xəbər verir ki, bunu Çeçenistanın rəhbəri Ramzan Kadırov deyib. O, Qroznıda Təhlükəsizlik məsələlərinə nəzarət edən ali nümayəndələrin 7-ci beynəlxalq görüşünün açılışında bildirib: “Vəziyyətdən istifadə edib xatırlatmaq istəyirəm ki, Rusiya ilə zarafat etmək və oynamaq olmaz. Bu mənasızdır. Bizim ən təhlükəli şər ilə mübarizə təcrübəmiz var və istənilən təhdidə cavab verə bilərik”.**

Qeyd edək ki, Qroznıda keçirilən görüşə 60-dan çox dövlətin təhlükəsizlik şuralarının katibləri, nazirlər, prezident və baş nazirlərin milli təhlükəsizlik üzrə köməkçiləri, xüsusi xidmət orqanlarının rəhbərləri gəliblər.

Azərbaycan nümayəndə heyətinə ölkəmizin Təhlükəsizlik Şurasının katibi Ramiz Mehdiyev rəhbərlik edir.



## İlham Əliyev Binəli Yıldırıma telefonla zəng edib

**Mayın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının baş naziri Binəli Yıldırıma telefonla zəng edib. Prezidentin mətbuat xidməti xəbər verir ki, dövlət başçısı Binəli Yıldırımı hakim Ədalət və İnkişaf Partiyasının sədri vəzifəsinə seçilməsi və baş nazir təyin olunması münasibətilə təbrik edib, ona dövlətçilik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.**

Türkiyə Respublikasının baş naziri Binəli Yıldırım göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.



## Türkiyənin yeni baş naziri Qafqazdakı qeyri-sabitlik haqda...

**Ankara Cənubi Qafqazdakı qeyri-sabitliyi öz problemi kimi qəbul edir. “Trend”in verdiyi məlumata görə, bunu Türkiyənin yeni baş naziri Binəli Yıldırım deyib.**

Onun sözlərinə görə, Türkiyənin Aİ ilə münasibətlərində problemlər var.

B.Yıldırım qeyd edib ki, Türkiyə terror problemini həll edəcək, onunla öz ərazisində sonadək mübarizə aparacaq.



## Nəcməddin Sadıkovun 60 yaşı oldu

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Hüseyn oğlu Sadıkovu 60 illik yubileyi münasibətilə təbrik edib. Bu barədə modern.az-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib.**

**Təbrikdə deyilir:** “Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm. Azərbaycan ordusu qısa müddətdə böyük inkişaf yolu keçmiş, möhtərəm prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında əcdadlarımızın tarixi hərbi adət-ənənələrini yaşadaraq ölkəmizin müdafiə qüdrətinin artınlmasında böyük nailiyyətlər əldə edib.

Əminəm ki, bundan sonra da xidməti vəzifələrinizi layiqincə yerinə yetirəcək, qarşıya qoyulmuş tapşırıqların uğurla həyata keçirilməsində, ordumuzun inkişafı və daha da qüdrətlənməsi naminə Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, ixtisas biliklərinə dərindən yiyələnməsində və hərbi intizamının möhkəmləndirilməsində səylərinizi daha da artıracaqsınız.

Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və xidmətinizdə yeni müvəffəqiyyətlər arzulayıram".

# İlhamiyyə Rza ANS-dən getməyindən danışdı


İlhamiyyə Rza

**Aparıcı İlhamiyyə Rza ANS telekanalından ayrılmasının səbəblərini açıqlayıb. O, xeber365.com-a müsahibəsində gedişini telekanalın reytinq tələbi ilə əlaqələndirib: “Reytinq tələb edilir və buna görə də mən ANS-i tərk edirəm. Verilişin reytinqi heç də aşağı deyildi. Bütövlükdə kanalın reytinqi düşəndə avtomatik bütün verilişlərin reytinqi düşür. Mən düşünmüşdüm ki, reytinq bəhanə və meyarları ilə yanaşılmayacaqsa, mən burda işləyə bilərəm.**

Və bu barədə mənə zəmanət verildi. Əslində özüm də bilirdim ki, ictimai-siyasi məzmunlu verilişin taleyini reytinqlə həll etmək düzgün deyil. Amma zamanla məlum oldu ki, ANS bu formatda çox davam edə bilməyəcək.

Reklamlar azalır, şirkətin pul qazanmaq imkanları azalır və sairə. Ümumiyyətlə, reytinq və kommersiya fəaliyyətini yalnız o zaman “iqnor” etmək olar ki, sən bütün hallarda dövlət dotasiyasındasan, maliyyələşirsən. Belə deyilsə, kommersiya qaydalarına tabe olmalısan.

Bütün hallarda bu, ANS-in özünün həll etməli olduğu məsələdir. Mənə ancaq dolayısı ilə aid ola bilər. Belə ki, burda məndən reytinq tələb edilməsi ANS-dən getməyimə səbəb oldu. Düzü, mənə “get” deyən olmadı, sadəcə, mənə reytinqin aşağı olmasını deyəndə, mən də onların başqa aparıcılar aramaqda sərbəst olmalarını bildirdim, özüm də namizəd kimi Tofiq Abbasovun adını çəkdim.

Onun peşəkarlığına şübhəm yoxdur. Amma bilmirəm, reytinq gətirəcək ya yox. Çünki nə o, nə də mən reytinq naminə şpaqat açmayan jurnalistlərdənik. Bütün hallarda mən layihəyə də, ANS-ə də uğurlar arzu edirəm. Necə deyərlər, yola davam. Başqa televiziya layihələrində yenidən çalışmağım istisna deyil".

Qeyd edək ki, İ.Rza növbəti aydan etibarən “Nəzər nöqtəsi” verilişinə aparıcılıq etməyəcək.

YENİ MÜSAVAT
N 113 (6434) 25 may 2016

# "Belə vəziyyət uzun müddət davam edə bilməz"



## Pənah Hüseyn: "Antiböhran Koalisiyasına daxil olan siyasi partiya və ictimai təşkilatların rəhbərlərinin piketinə hazırlıq gedir"

### "Hökumətin Vyana görüşü barədə əvvəl susması, sonra Novruz Məmmədovun ziddiyyətli bəyanatları çox ciddi suallar yaradır"

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn son günlərin aktual hadisələri ilə bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

***- Pənah bəy, Türkiyədə hakim partiyanın sədri və baş nazir postuna dəyişikliyin olmasına sizin münasibətiniz necədir?***

- Türkiyənin qanuni seçilmiş hakimiyyət orqanları tərəfindən bu məsələlər həyata keçirilir. Bizə ancaq bu məsələnin Türkiyə dövlətinə və xalqına xeyirli olmasını arzulamaq qalır.

***- Baş nazir dəyişikliyi Türkiyənin xeyli vaxtdır yaşadığı daxili və xarici problemlərin həllinə hansısa formada təsir göstərəcəkmi?***

- Türkiyədə hazırda proseslər Türkiyənin prezidenti tərəfindən yürüdülən siyasətlə həyata keçirilir. Mən hesab edirəm ki, bu vaxta qədər həyata keçirilən siyasət davam edəcək.

***- Azərbaycana münasibətdə yeni baş nazirin gəlişi hansısa dəyişikliklərə gətirə bilərmi?***

- Azərbaycana münasibətin dəyişəcəyini düşünmürəm. Azərbaycanla dostluq, qardaşlıq, strateji əməkdaşlıq yeni baş nazirin dönəmində də davam edəcək.

***- Ötən həftə Azərbaycanda minlərlə məhbusun azadlığa qovuşmasını təmin edəcək Amnistiya aktı qəbul olundu. Bu hadisəni necə qiymətləndirirsiniz?***

- Ümumiyyətlə, istənilən halda amnistiya müsbət bir hadisədir. Müəyyən sayda insanın azadlığa qovuşmasına səbəb olursa, bunun özü müsbət addımdır. Amma Azərbaycanda siyasi məhbus probleminin həll olunması üçün başqa ciddi kardinal tədbirlərə ehtiyac var. Əsas odur ki, hazırda siyasi məhbus kimi tanınan məhkumlar hansısa bir hüquqi formada həbsdən azad olunmalıdır. Təəssüf ki, bu yaxınlarda bir neçə aktiv gəncin bəhanə ilə həbsə atılması bu məsələdə optimist olmağa imkan vermir.

***- Bir müddət öncə sizin də iştirakınızla yaradılan Antiböhran Koalisiyasının aktiv fəaliyyəti nəzərə çarpmır. Səbəb nədir?***

- Bu, təbii ki, bir siyasi blok deyil. Sadəcə, bir qrup siyasi partiyanın və ictimai təşkilatın əməkdaşlıq mərkəzidir. Mütəmadi olaraq hər həftə toplanıb ölkədəki ictimai-siyasi vəziyyəti müzakirə edib münasibət bildiririk. Prezident Administrasiyasının qarşısında Antiböhran Koalisiyasına daxil olan siyasi partiya və ictimai təşkilatların rəhbərlərinin "Siyasi həbslərə son!", "Qiymət artımına son!", "Kredit quldurluğuna son!", "Vyana təslimçiliyinə son!" şüarları ilə mayın 27-də piket keçirməsi barədə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət olunub. Hələlik cavab almamışıq. O müraciəti imzalayanlardan biri də mənəm. Piketdə yalnız koalisiyaya daxil olan siyasi partiya rəhbərlərinin iştirakı nəzərdə tutulub. Bu da təxminən 10 nəfər edir. Mayın 28-də isə Koalisiyanın Novxanıda Məhəmməd Əmin Rəsulzadənin abidəsi önündə 28 May Respublika Günü münasibətilə tədbir keçirməsi planlaşdırılır. Gələn ay bir sıra tədbirlərimiz nəzərdə tutulub. Demokratiya və Qarabağ problemi mövzularında dəyirmi masaların keçirilməsi də planlaşdırılır.

***- Piketlə bağlı müraciətinizə mənfi cavab verilsə, hansı addımı atacaqsınız?***

- Məsələni müzakirə edib bir qərara gələcəyik. Müraciətin özü bir aksiyadır.

***- Antiböhran Koalisiyası ötən ilin dekabrındakı ikinci devalvasiyadan sonra yaradıldı. Devalvasiyadan beş aydan artıq keçib. Bu müddətdə hökumətin antidevalvasiya, antiböhran tədbirlərini izləyirsinizmi, razısınızmı?***

- Hökumət bu böhranın ağırlığını sadə vətəndaşların və iş adamlarının üzərinə qoyub. Çünki monopolistlər və korrupsioner məmurlar çiçəklənməkdə davam edirlər. Amma vətəndaşların həyat səviyyəsi, onların real gəlirləri devalvasiyadan əvvəlki dövrlə müqayisədə aşağı düşməkdə davam edir. Rəsmi rəqəmlərdə göstəriləndən ən azı iki dəfə artıq inflyasiya mövcuddur. İş yerləri bağlanıb, vergi ödəyicilərinin sayı getdikcə azalır. Yəni problem bu şəkildə davam edir. Aprelin əvvəlində Qarabağ cəbhəsində baş verən hərbi əməliyyatlar, bu hadisəyə görə ölkənin səfərbər olması baş verdi. Siyasi təşkilatlar, əhali ürəklərinin üstünə daş basıb torpaqlarımızın azad olunması naminə iqtisadi, sosial çətinliklərə bir az dözməyi qərarlaşdırdı. Amma təbii ki, bu uzun müddət davam oluna bilməz. Devalvasiyanın, böhranının nəticələrinin zəiflədilməsi üçün çox ciddi iqtisadi, sosial islahatlara ehtiyac var. Çünki belə vəziyyət uzun müddət davam edə bilməz. Bütün istiqamətlər üzrə ciddi islahatlar aparılmalıdır.

***- Aprelin əvvəlindəki 4 günlük hərbi əməliyyatlardan sonrakı müddətdə Qarabağla bağlı gedən prosesləri izləyirsinizmi? Sizcə, bu gedişlə proses hansı nöqtəyə gedib çıxa bilər?***

- Son vaxtlar gedən proseslərlə bağlı çoxlu sayda cavabı gözləyən suallar var və suallara cavab verilmədikcə, sayı artır. Azərbaycan hökumətinin Vyana görüşü barədə əvvəl susması, sonra Novruz Məmmədovun bir məzmunda bəyanat verməsi, iki gün sonra tamamilə həmin bəyanatın əksinə bəyanat verməsi və digər məsələlər çox ciddi suallar yaradır. Biz yaranmış vəziyyəti cəbhədə Azərbaycan ordusunun qazandığı uğurların diplomatiya cəbhəsində təhlükəyə salınması təhdidi kimi xarakterizə eləmişik. Azərbaycan informasiya efiri də erməni siyasətçilərinin və ekspertlərinin şərhləri ilə doludur. Başa düşülməyən məsələlər ortada var. Vəzifəli şəxslərin ziddiyyətli açıqlamaları və sair hansısa prosesin guya getdiyi barədə təəssürat yaratmağa çalışırlar. İyun ayından söhbət gedir. İyun ayını da gözləyək. Əlbəttə, biz proseslərin Azərbaycan üçün müsbət nəticələnməsini arzu edirik.

***- ABŞ, İsrail siyasi ekspertləri bildirirlər ki, danışıqlar prosesi başlansa da, əslində hər iki tərəf müharibə hazırlıqları içindədir və payıza doğru genişmiqyaslı müharibə başlaya bilər. Siz necə hesab edirsiniz, sonda genişmiqyaslı hərbi əməliyyatlar gözlənilirmi?***

- Burada Azərbaycanın və onun rəhbərliyinin öz xalqına, ordusuna güvənərək prinsipial, ardıcıl mövqe tutması həlledici əhəmiyyətə malikdir. Biz tələb edirik ki, rəhbərlik məhz belə bir mövqeni nümayiş etdirsin. Xalqın gücündən, potensialından istifadə olunmalıdır. Dünyaya da, Qarabağ münaqişəsini abədiləşdirmək istəyən qüvvələrə də Azərbaycan xalqının iradəsi nümayiş etdirilməlidir. Danışıqlardan bir şey çıxmayacaqsa, indiki təbliğatın zərər gətirəcəyi qənaətindəyəm.

***- Azərbaycanın müxalifət düşərgəsində pərakəndəlik nə vaxta qədər davam edəcək?***

- Siyasi proseslərin normal getməməsinin mənbəyində hakimiyyət durur. Lakin artıq müxalifət düşərgəsində müəyyən yaxınlaşma proseslərinin getməsi müşahidə edilir, bu barədə informasiyalar var. Biz yaxınlaşma prosesini təqdir edirik. Tədbirlərin birgə keçirilməsi kimi danışıqların getdiyi barədə söhbətlər var. Baş tutsa, təqdir olunandır. Müxalifət partiyaları, ayrı-ayrı siyasilər arasında münasibətlərin müsbətə doğru getməsi son dövrlərdə müşahidə olunur. Bunun real nəticələrinin olması da gözlənilir. Mən müxalifətin pərakəndə olması iddiası ilə razı deyiləm. Aprel döyüşlərindən sonra müxalifət partiyaları da əsas diqqəti yaranmış situasiyaya yönəltmişdi. Ola bilər ki, bu fon sizdə belə bir təəssürat yaradıb ki, müxalifət həddən artıq passivdir, pərakəndədir.

***- Müsavat Partiyası ilə AXCP-nin rəhbərliyinə daxil olan bəzi şəxslər arasında Tofiq Yaqublunun təşəbbüsü ilə danışıqlar aparıldı. Tofiq bəy prosesin davam edəcəyini deyib. Siz hər iki partiyanı dərindən tanıyırsınız. Müsavatla AXCP arasında gedən danışıqların müsbət perspektivinə inanırsınız?***

- Arzu edirəm ki, bu prosesin real müsbət nəticələri olsun. Bizdə olan məlumatlara görə, Müsavatla AXCP-nin bəzi tədbirləri birgə keçirməsi barədə razılıqlar var. Yəqin ki, real nəticələr olacaqsa, həmin partiyalar özləri rəsmi açıqlamalar verəcəklər. Hər halda, təmasların olması müsbət haldır.

***- Fərz edək ki, Müsavatla AXCP o qədər yaxınlaşdılar ki, hətta birgə blok yaratdılar. Bunun Azərbaycan siyasi həyatına ciddi təsiri olacaq?***

- Mən ancaq belə bir təsirin müsbət olacağı qənaətindəyəm.

❑ **Etibar SEYİDAĞA**

## Siyavuş Novruzov müxalifəti passivlikdə qınadı

### "Müxalifət partiyaları dedi-qodu, boş-boş danışıqlar və demoqogiyadan başqa heç nə bilmirlər"



**"Müxalifət partiyalarından YAP-ın iqtisadiyyat, səhiyyə, sosial, elm, təhsil, idman və digər sahələr üzrə komissiyalarına hər hansı təklif daxil olmayıb. Onların müxtəlif sahələrdə faydalı təşəbbüslərlə çıxış etməsi üçün böyük potensial tələb olunur. Bu cür potensial müxalifət partiyalarının heç birində yoxdur".**

Bu sözləri modern.az saytına açıqlamasında Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Siyasi Şuranın üzvü Siyavuş Novruzov deyib. YAP rəsmisi onu da əlavə edib ki, müxalifət partiyaları danışmaqdan başqa heç nə edə bilmir: "Bugünkü bəzi müxalifət partiyaları dedi-qodu, boş-boş danışıqlar və demoqogiyadan başqa heç nə bilmirlər, əllərindən başqa iş gəlmir. Bu günə qədər konkret olaraq hansısa iqtisadi islahatlar paketi ilə bağlı bizə müraciət edib deməyiblər ki, bu addımı atsaq, ölkə iqtisadiyyatı daha da yaxşı inkişaf edər".

**YAP icra katibinin müavini deyib ki, hakim partiyanın müxtəlif sahələr üzrə olan komissiyaları yetərincə aktiv fəaliyyət göstərir:**

"YAP-ın iqtisadiyyat, səhiyyə, sosial, elm, təhsil, idman və digər sahələrdə olan komissiyaları partiyanın İdarə Heyətinin qərarı ilə formalaşır və fəaliyyət göstərir. Həmin komissiyalar bütün sahələri əhatə edir, ekspertlərin rəylərini nəzərə alır, ekspertləri müzakirələrə dəvət edir, lazım olduqda təklifləri nəzərə alaraq həyata keçiririk.

Komissiyalardakı müzakirələrdə parlamentin aydiyyəti komitə üzvləri olan deputatlar, hökumət nümayəndələri, partiyanın Siyasi Şurasının üzvləri də iştirak edirlər. Müxtəlif nazirliklərə, dövlət komitələrinə, şirkətlərə də konkret təkliflər göndəririk.

YAP-da dialoq komissiyası var. Dialoq komissiyasının sədri prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovdur. Siyasi partiyaların hansısa sahədə olan təklifləri əsasən dialoq komissiyasına daxil olur. Müxalifət partiyalarının dialoq komissiyasına daxil olan təklifləri daha çox siyasi xarakterli müraciətlərdir".

YENİ MÜSAVAT
N 113 (6434) 25 may 2016

# Qarabağın xilası üçün ən uyğun zaman

## Azərbaycan və Ermənistan böyük savaşa hazırlıq görür; Rusiyanın dünyada təklənməsi torpaqların xilası üçün şans yaradır

**Ötən sutka Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində bəlkə də son illərin ən gözlənilməz hadisəsi qeydə alınıb. Belə ki, işğalçı ölkənin silahlı bölmələri atəşkəs rejimini cəmi 18 dəfə pozub. Xüsusilə də aprel döyüşlərindən sonra atəşkəsin pozulması halları az qala on dəfə çox olduğu halda, düşmən bu dəfə nədənsə özünü nisbətən sakit aparıb.**



Ancaq bu, heç də işğalçının islah olunması, yaxud Vyana görüşünün nəticəsi kimi dəyərləndirilə bilməz. Məsələ burasındadır ki, Ermənistan növbəti dəfə həyasızcasına Azərbaycanın işğal olunmuş Laçın və Ağdam rayonları ərazisində genişmiqyaslı hərbi təlimlər keçirib. Üstəlik, Ağdamdakı təlimlərdən sonra ərazilərimizə od vurulub. Bütün bunlar isə İstanbulda, BMT-nin baş katibi Pan Gi Munun iştirakı ilə keçirilən toplantıda Azərbaycan prezidentinin Ermənistanın işğalçı siyasəti ilə bağlı çıxış etdiyi saatlarda baş verib. İrəvan bununla beynəlxalq hüququ tanımadığını bir daha nümayiş etdirib.

Şübhəsiz ki, Ermənistanın aprel döyüşlərindəki sarsıdıcı zərbələrin ardınca yenə də aqressivləşməsinin arxasında Rusiya amili dayanır. Məsələ burasındadır ki, Moskva hərbi müttəfiqinə növbəti silah partiyasını 200 milyon dollarlıq kredit hesabına göndərməyə hazırlaşır. Ermənistan aprel döyüşlərindən sonra Rusiyadan "Smerç" və TOS-1A odsaçanları əldə etməyə çalışır, lakin hələlik buna nail ola bilmir. Ermənistanın müdafiə naziri Seyran Ohanyan demişdi ki, kredit hesabına alınan silah və hərbi texnikanın daşınması üçün tədbirlər görülür, proses gedir. Lakin nazir silahların ilk partiyasının artıq Ermənistana daxil olduğu haqda təsdiqləyici heç nə deməyib. Bundan əvvəl baş nazir Ovik Abramyan silahların daşınması prosesinin artıq başladığını demişdi. (virtualaz.org)

Ancaq Ermənistanın aqressivləşməsi həm də daxildəki durumla əlaqədardır. Sərkisyan rejimi illər boyu daxildə elə atmosfer yaradıb ki, bu gün ac-yalavac vəziyyətdə olsa belə, erməni xalqı Qarabağın qaytarılmasını qəbul etmək istəmir. Ayrı-ayrı normal düşüncəli ermənilər də bu barədə danışanda onların üzərinə hücumlar başlanır. Üstəlik, Qarabağda və Ermənistanda mövqe sahibi olan, Qarabağ döyüşlərində cinayətlər törətmiş, faktiki olaraq beynəlxalq dərəcəli terrorçular statusu qazanmış şəxslər də Azərbaycanla normal münasibətlərin bərpasını özləri üçün faciəli sonluq hesab edirlər. Elə bugünlərdə erməni hakimiyyətinin çağırışlarına baxmayaraq, keçmiş səhra komandirlərini bir arada birləşdirən, "Yerkrapa" könüllüləri adlanan terrorçular silahları təhvil verib Qarabağdan geri dönməkdən imtina etdilər. Onlar iddia edir ki, aprel əməliyyatlarında Azərbaycanın



azad etdiyi yüksəkliklər geri qaytarılana qədər Qarabağda qalacaqlar.

Eyni zamanda Ermənistanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının "Kobalt-2016" adı altında keçirəcəyi birgə taktik təlimlər mayın 24-dən start götürüb. Məlumata görə, "Baqramyan" təlim bazasında keçirilən təlimlərdə KTMT-nin baş katibi Nikolay Bordyuja da iştirak edəcək.

Düşmənin davranışları təbii ki, Azərbaycan tərəfdə diqqətlə izlənilir və müdafiə tədbirləri görülür. Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin ötən həftə keçirilən görüşündə də təhlükəli vəziyyət müzakirə mövzusu olmuşdu. Keçirilən hərbi təlimlər də müdafiə qüdrətimizin artırılmasına hesablanıb. Azərbaycan ordusunun Raket və Artilleriya qoşunlarının komandanı, general Zahid Hüseynov bugünlərdə mətbuata açıqlamasında 200, 300 və 500 kilometr məsafədə hədəfi dəqiq vuran operativ-taktiki raketlərin alınması üçün tədbirlər gördüyünü də deyib. Məlumata görə, Azərbaycan artıq Pakistandan müəyyən operativ-taktiki raketlər alıb.

Müşahidəçilərin fikrincə, hazırda hər iki ölkə şiddətli savaşa hazırlaşır. Sadəcə, Azərbaycan "Formula-1" yarışına qədər status-kvonun saxlanması üçün təmkinli davranmağa üstünlük verir. Ehtimallar var ki, məhz buna görə də Ermənistan ordusunun Ağdamdakı son həyasızlığına sərt reaksiya verilməyib. Ancaq düşmənin "Formula-1" yarışları zamanı da təxribatlara əl atacağı istisna edilmir. Aprel ayında Bakıda keçirilən beynəlxalq forum zamanı da düşmən artilleriyanı işə salmışdı.

Ümumiləşdirsək, nə Azərbaycan, nə də Ermənistan indiki şərtlər daxilində sülhə hazır deyil. Bu mənada prezidentlərin iyunda gözlənilən görüşündə də uğur əldə olunacağına inam yoxdur. Azərbaycan təbii haqqını tələb edir, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini, torpaqların azad olunmasını istəyir, Ermənistanda "Böyük Ermənistan" xəstəliyinə yoluxdurulmuş toplum Azərbaycanın tarixi torpaqlarının azad olunmasını ağıllarına belə gətirmək niyyətində deyil. Ortaya çıxan qənaət budur ki, Azərbaycan ordusu bayrağımızı Xankəndində dalğalandırmayınca, ermənilər ədalətli sülhə razılıq verməyəcəklər. Aprel döyüşlərindəki uğursuzluqdan sonra da onların hətta məğlubiyyətə görə Sərkisyan hakimiyyətini topa tutması bunu sübut edir.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında belə bir şəraitdə irimiqyaslı hərbi toqquşmaları istisna etmədi. Ancaq onun sözlərinə görə, "Formula - 1" yarışları bitənə qədər Azərbaycan hakimiyyəti atəşkəsi qorumağa və sakitliyə çalışacaq:** "Lakin iyul ayından başlayaraq, vəziyyətin yenidən gərginləşməsi ehtimalı yüksəkdir. Digər tərəfdən, "Foruma-1" yarışları ərəfəsində Ermənistanın da cəbhə bölgəsində təxribat törətməsi ehtimalı yüksəkdir. Ancaq ağılları olsa, həm iyunda sakit davranarlar, həm də prezidentlərin növbəti görüşündə mərhələli həll planının əsas müddəalarına razılaşarlar. Ancaq buna inamım azdır".

**Belə hesab olunur ki, Rusiya-NATO qarşıdurması Qarabağın xilası üçün şans yaradır. E.Şahinoğlu isə hesab edir ki, şansı ilk növbədə özümüz yaratmalıyıq - düşmənə təzyiqi artırmaqla. Bununla belə, politoloq Rusiyanın təklənmiş duruma düşməsini ciddi məsələ sayır:** "Bəli, Rusiya təklənib. Üstəgəl, Vaşinqton çox uğurla Rusiyanı bütün sərhədi perimetri boyunca sıxışdırır. Vaşinqton əvvəlcə Rumıniya, Polşa və Çexiyada raketlərdən müdafiə sistemləri yerləşdirməyə qərar verdi, ardından Baltik ölkələrində və Gürcüstanda hərbi təlimlər keçirdi. Belə bir vəziyyətdə Azərbaycanla Ermənistan arasında müharibə başlasa, Rusiya və Qərb uzun müddət vahid mövqedən çıxış edə bilməyəcəklər. Çünki müharibə uzansa, Rusiya Ermənistana hərbi dəstəyini artıracaq və bu, Azərbaycanda narazılıqla qarşılanacaq. Elə vəziyyət yarana bilər ki, rəsmi Bakı da NATO ölkələrindən, o cümlədən Türkiyədən hərbi dəstək istəyə bilər. Bu halda Cənubi Qafqazda ayırıcı xətlər çəkiləcək".

Bəli, Rusiya təklənib, hətta NATO-Rusiya müharibəsinin başlaya biləcəyi barədə ciddi ekspertlərdən xəbərdarlıqlar da gəlir. Ancaq Bakı indiki "yaralı" halında "Şimal ayı"sını qıcıqlandıra biləcək hər hansı addım atmamaq xətti yürüdür, balansı qoruyur, münasibətləri saxlamağa çalışır. Rusiya tədricən 90-cı illərin əvvəllərindəki halına, Yeltsin zamanındakı postsovet ölkəsinə qayıdır. O zaman şimal qonşumuzu dağılmaqdan qoruyan Qərb bu dəfə çətin ki, eyni cür davransın. Hesab olunur ki, Qarabağın xilası üçün pəncərə də məhz Rusiyanın başının özünə qarışdığı, hətta Ermənistanı özünə ağır yük sayıb ayağının altına atmaq istədiyi məqamda açıla bilər.

❑ **E.PAŞASOY**

# Sözünün ağası olan dövlət



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**"Qoca qitə"də yenə anti-Türkiyə isterikası baş qaldırıb. Ənənəvi erməni və kürd (PKK) kartlarını təzədən işə salıblar. Bəlli olub ki, Almaniya, İsveç və Çexiyanın ardınca Fransada da PKK-nin Suriya qolu PYD-nin nümayəndəliyi açılıb. İyunun 2-də isə Almaniya Bundestaqı saxta erməni soyqırımı ilə bağlı sənəd layihəsini müzakirəyə çıxarıb, yekun qərar verəcək. Onun qəbulu ehtimalı yüksək qiymətləndirilir.**

Qardaş ölkəyə qarşı budəfəki təhdid-təzyiq iki olaya görə diqqət çəkir. Az öncə rəsmi Ankara Avropa Birliyinin terrorla mübarizə qanununu yumşaltmaq tələbini rədd eləmişdi. Həmin tələb PKK-ya münasibətdə mübarizə üsullarının, faktiki, yumşaldılmasını ehtiva edirdi. Lakin Ankara üçün bu, "qırmızı xətt" olduğundan tələbi geri çevirmişdi. Ardınca qurum Türkiyə ilə yayda viza rejimini götürmək təşəbbüsündən imtina elədi.

İkinci diqqətçəkici olay isə Əhməd Davudoğlunun baş nazirlikdən getməsidir. Davudoğlu daha çox Amerika və Avropanın adamı hesab edildiyindən, yeni baş nazir Binəli Yıldırım isə sırf Ərdoğana sadiq kadr olduğundan, istisna deyil ki, Avropa həm də Ankaradan bir növ qisas alır.

Ancaq Türkiyə sıradan bir dövlət deyil. BMT-nin İstanbul sammiti də göstərdi ki, o, dünya liderlərini vaxtaşırı bir araya gətirməyi, öz maraqlarını qorumağı bacarır və sözünün ağası olan dövlətdir. Azərbaycan üçün isə belə sözübütövlük xüsusi əhəmiyyətdədir.

Söhbət Qarabağ məsələsindən gedir təbii ki. İki ölkə liderinin sammit çərçivəsində görüşü bunun növbəti bariz təsdiqi oldu. Bağlı qapılar arxasında da olsa, sızan bilgilərə görə, qardaş ölkə Qarabağ məsələsində bir daha yanımızda olduğunu və bizə hər cür dəstək verməyə hazır olduğunu bəyan edib. Bundan qabaq Türkiyənin müdafiə naziri İsmət Yılmaz Qəbələdə analoji fikirlər söyləyərək bəyan eləmişdi ki, Bakının xahiş eləməsi yetər ki, Ankara Azərbaycana Qarabağ məsələsində hərbi köməyi də göstərsin.

Dönə-dönə yazmışıq, bir də yeri var vurğulayaq ki, Qarabağ konfliktinin həllində Türkiyə amili daima düşmənlər üçün çəkindirici amil rolunda olub və indi də olmaqdadır. Problemin yekun həllində də şübhə yox ki, bu faktor öz sözünü deyəcək. Onunla hesablaşmadan heç kim ixtilafın həllini inhisara ala bilməz.

Sözgəlişi, elə bu amilə, üstəgəl, siyasi qısqanclıq səbəbi ilə qardaş ölkə məkrli şəkildə 90-cı illərin əvvəllərində aktiv Qarabağ vasitəçiliyindən uzaqlaşdırıldı. Hədəf həm də Azərbaycanı təkləyib, ona istədikləri həll modelini sırımaq idi. Halbuki, vaxtilə ABŞ-Rusiya-Türkiyə vasitəçilik üçlüyü mövcud olub.

Odur ki, Türkiyə edilən istənilən pislik Azərbaycana edilmiş kimidir və həmişə də belə qiymətləndiriləcək. Zira, Türkiyə harada, Azərbaycan da orada - ya Avropa Birliyi ilə, ya da AB-siz...

Britaniya baş naziri Kemeron da deyir ki, Türkiyə yalnız 3000-ci ildə Avropa Birliyinə üzv ola bilər. Əlbəttə, sizin əlinizdə bitib-tükənməyən bəhanələr, həmişə gizli saxladığınız kürd, erməni kartları varkən nəinki 3000-ci ildə, ümumiyyətlə, heç vaxt bu üzvlük reallaşmayacaq.

Amma Türkiyə bundan əsla itirməz, kiçilməz! İtirsə Avropa itirər, Qərb itirər. Minnətiniz olsun. Necə ki, Suriya, İŞİD məsələsində bu ehtiyac bir daha özünü göstərdi - qoca qitə Türkiyə ilə anlaşmalı oldu. Yeni qardaş ölkənin harasa üzv olmasına xüsusi lüzum yox. Çünki özü Avropa Birliyi boyda, hətta ondan da artıq güc-nüfuz yiyəsidir.

Zatən, müsəlman Türkiyəyə qarşı xristian Qərbdəki antipatiyanın tək səbəbi də elə bu.

YENİ MÜSAVAT
N 113 (6434) 25 may 2016



# AG Partiyanın qurultayı təxirə salındı

## Tural Abbaslı: "Qurultayımızı paytaxtın mərkəzindəki hotellərdə keçirmək istəyirik, amma..."



**Mayın 24-də "AG blok"un təsisçilərindən olan Tural Abbaslı "Yeni Müsavat"ın qonağı olub. T.Abbaslı baş redaktor Rauf Arifoğlu, həmçinin redaksiya heyəti ilə görüşüb. Gələcək partiya sədri musavat.com-a partiya ilə bağlı planlarından da danışıb. Məlum olub ki, bu ayın sonunda qurultay keçirərək AG Partiyaya çevrilməyi planlaşdıran "AG blok"un planları təxirə düşüb. Səbəb qurultayın keçirilməsi üçün uyğun yerin tapılmamasıdır.**

"AG blok"un təsisçilərindən olan Tural Abbaslı məsələ ilə bağlı açıqlamasında bildirib ki, AG Partiyanın mayın 29-na planlaşdırılan qurultayı olmayacaq. ""AG blok"un partiyaya çevrilməsi olaraq qurultay keçirməyi düşünmüşdük. Amma sonradan gördük ki, Vahid Azərbaycan Partiyasına üzv olmaq, onun qurultayını keçirmək və adını dəyişmək kimi prosedurlar olmalıdır. Proqram dəyişikliyi, nizamnamə dəyişikliyi, ad dəyişikliyi olacaq. Ona görə yeni situasiya yarandı. Həm də qurultayın təxirə salınmasının əsas səbəblərindən biri də qurultay keçirilməsi ilə bağlı məkan anlayışıdır. Məkan tapılmır. Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etməmişik. Amma əslində müraciət olunduğu təqdirdə belə, onlar hansısa yerləri göstərirlər. Kinoteatrları, mədəniyyət klublarını göstərib qeyd edirlər ki, bu yerlərdə qurultayın keçirilməsinə etiraz etmirik. Yəni nəticədə "gedin, özünüz həll edin" deyirlər. Əksər yerlər özəlləşdirilib, əslində Bakı Şəhər İcra Hakimiyyətindən siyasi razılıq alırsan. Bu günə qədər əksər qurultaylar Əmircan qəsəbəsində keçirilib. Ora şəhərdən çox aralıdır, insanların iştirakına problem yaradır. Bu gün siyasi məsələlərə maraq o qədər deyil, bütün bu nüanslar nəzərə alınmalıdır. Bu gün Bakıda müxtəlif, müasir tipli konfrans zalları var. Tanınmış hotellərin konfrans zalları var ki, orada tədbirlər keçirilir. Biz də belə etmək niyyətindəyik. Belə səliqəli məkanda qurultay keçirmək istəyirik. Bir neçə hotellə danışmışıq. Təəssüf olsun ki, həmin hotellər bu səpkili digər tədbirlərə, daha mübahisəli təşkilatlara belə yerlər ayırmalarına baxmayaraq, bizə gəldikdə, çəkingən davranırlar. Yer ayırmaq istəmirlər. Biz cəhdlərimizi davam etdirmək niyyətindəyik. Yenə də çalışacağıq ki, özəl sektorda olan müasir tipli zallardan hansınısa ödənişli şərtlətlə birgünlük kirayələyək və normal qurultay keçirək. Güman etmirəm ki, Azərbaycan hökumətinə indiki vəziyyətdə müxalif düşüncəli bir partiyaya yer ayırmamaq kimi bir imic sərf etsin. Düşünürəm ki, bu, həmin təşkilatların özfəaliyyətidir. Özlərini həddindən artıq sığortalamaq istəklərindən irəli gəlir. Ona görə qurultayı iyunun əvvəllərinə keçirməyi qərarlaşdırdıq. İyunun 5-i, yaxud 12-də, yəni istirahət günü qurultayımızı keçirəcəyik. Partiya olaraq rəsmi siyasi fəaliyyətə başlayacağıq".

**T.Abbaslı qeyd edib ki, qurultayda partiyanın rəhbərliyi, yeni müavinlər təyin olunmayacaq:** "Məclis seçiləcək. Sonra Məclis öz toplantılarından birində sədrin müavinlərini və İdarə Heyətini seçəcək. Bizimlə olanların böyük əksəriyyəti rəhbərlikdə təmsil olunacaqlar".

❑ **Röya RƏFİYEVA**

---

**1918-ci il mayın 28-də yaranan Azərbaycan Xalq Cümhuriyyətinin 98-ci ildönümü yaxınlaşır. Azərbaycan üçün ən böyük bayram sayılan 28 May Respublika Günü münasibətilə dünyanın müxtəlif ölkələrindən, beynəlxalq təşkilatlardan Azərbaycan prezidenti İlham Əliyevin ünvanına təbriklər gəlməkdədir. Respublika günü münasibətilə mayın 28-də "Buta Palase"də təntənəli dövlət tədbirinin keçiriləcəyi bildirilir. Bayram tədbirində başda ölkə prezidenti olmaqla, bütün dövlət və hökumət məmurları, diplomatik korpus təmsilçilərinin iştirakı nəzərdə tutulub.**

---



# Hakimiyyətlə müxalifətdə bayram hazırlıqları

## 28 May Respublika Günü bayram mitinqləri olacaq

Azərbaycanın müxalifət partiyaları da 28 May Respublika Günü münasibətilə müxtəlif bayram tədbirləri keçirəcək.

**Müsavat Partiyasının Divan üzvü Vəfa Cümşüdlünün** "Yeni Müsavat"a verdiyi xəbərə görə, Müsavat Partiyası 28 May Respublika Günü ilə əlaqədar mayın 28-də saat 12-də Novxanıda Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin heykəli önündə ənənəvi bayram mitinqi keçirəcək. Bununla əlaqədar olaraq partiyanın Divanında müzakirə keçirilib, strukturlarda iclaslar olub, hazırlıq işləri müzakirə edilib.

**Ümid Partiyası sədrinin müavini Tamilla Qulami** isə bildirdi ki, 90 saylı Ağdaş seçki dairəsində iyun ayının 18-də keçiriləcək deputat seçkisinin təbliğat-təşviqat kampaniyası mayın 26-da başlayacaq, ona görə də partiyanın əksər nümayəndələri komanda olaraq Ağdaşda olacaq. Rayonda olan Ümid Partiyası üzvləri 28 May Cümhuriyyət Gününü orda qeyd edəcək, paytaxtda olanlar isə qərargahda dəyirmi masa keçirəcək, sonra isə Məhəmməd Əmin Rəsulzadənin Novxanıdakı heykəlini ziyarət edəcək. Eyni zamanda mayın 28-də Ümid Partiyası üzvləri Xalq Cümhuriyyətinin şərəfinə ucaldılan abidəni ziyarət edəcək.

**ADP sədrinin müavini Taliyət Əliyev** bildirdi ki, 28 mayda saat 12-də Böhran Koalisiyasına daxil olan partiyalarla birlikdə Novxanıda Xalq Cümhuriyyətinin banisi Rəsulzadənin abidəsi önündə bayram tədbiri keçirməyi planlaşdırırlar.

**KXCP sədrinin müavini Xəzər Teyyublu** da mayın 28-də Antiböhran Koalisiyasına daxil olan partiyalarla birlikdə Novxanıda bayram tədbiri keçirəcəklərini bildirdi.

VİP-dən, AXP-dən, ALDP-dən, Böyük Azərbaycan Partiyasından və Azadlıq Partiyasından da bildirildi ki, Böhran Koalisiyası olaraq mayın 28-də saat 12-də Novxanıda Rəsulzadənin abidəsi önündə bayram tədbiri keçirəcəklər.

AMİP Respublika Günü münasibətilə partiyanın mərkəzi qərargahında bayram tədbiri keçirəcək.

❑ **E.SEYİDAĞA**

---

# Müsavat başqanı müavininin cəzası 3 il yarım azaldıldı

## Fərəc Kərimli amnistiya ilə azad oluna bilər; vicdan məhbusunun maddəsində dəyişiklik edilib

**Mayın 24-də Ali Məhkəmədə Müsavat başqanının müavini, vicdan məhbusu Fərəc Kərimlinin və martın 18-də əfvlə azadlığa çıxan qardaşı Sirac Kərimlinin son məhkəmə prosesləri keçirilib. Hakim Fərhad Kərimovun sədrliyi ilə baş tutan məhkəmədə başqan müavininin cəzası 6 il 6 aydan 3 ilə endirilib. S.Kərimlinin isə hökmü qüvvədə saxlanılıb.**

Məhkəmə heyəti F.Kərimlinin ittiham olunduğu maddənin töfsifində dəyişiklik edilib. O, indiyə qədər Cinayət Məcəlləsinin 234.4.3 maddəsi ilə külli miqdarda narkotik maddələrin satışında ittiham olunurdu. Ali Məhkəmə onun əməlini CM-in 234.1 maddəsi ilə tövsif edərək (şəxsi istehlak miqdarından artıq narkotik maddələrin saxlanması), sanksiyanın ən yuxarı həddində cəza təyin edib.

**Kərimli ailəsi bəraət verilməsə də, F.Kərimlinin cəzasının azaldılmasına olan sevinclərini gizlətməyiblər. Başqan müavinin atası Rafiq Kərimli amnistiya öncəsi belə bir qərarın qəbul ediləcəyini gözləmədiklərini qeyd etdi:** "Açığı, belə bir qərar gözləmirdik. Hər halda, ədalətin bərpası olmasa da, irəliləyiş həsab etmək olar. Amnistiya aktında məcburi köçkün və digər amillər nəzərə alınır. Məhkəmədə vəkillər var idi. Nemət Kərimli və Əsabəli Mustafayev. Onlar bildirdilər ki, bu qərar amnistiyaya görə verilə bilər. Hər şey onlardan asılıdır. Fərəcin özü məhkəməyə gətirilməmişdi. Fərəcin özü ilə danışdıq və nəticəni xəbər verdik. Özünə biz deyənə qədər xəbər verməmişdilər. Özü üçün də bu qərar gözlənilməz olub. Çox istərdim ki, oğlum barədə bəraət verilsin. Ədalətin bərpası belə qərardan keçirdi. Amma nə edək ki, belə qərar oldu. Ailəmizdə qərarı sevinclə qarşıladılar. Sirac haqqında qərar qüvvədə saxlanıldı. İstənilən halda verilən qərarla razılaşmamaq olmur".

**Vicdan məhbusunun vəkili Nemət Kərimli verilən qərarla bağlı bunları dedi:** "O qədər də böyük gözləntimiz yox idi. Çünki Azərbaycanda məhkəmələrin durumu məlumdur. Əgər ədalətli məhkəmə olsaydı, Fərəc barədə bəraətedici qərarlarla işə xitam verilməli idi. Düşünürəm ki, Fərəcin beynəlxalq təşkilatlar tərəfindən vicdan məhbusu elan olunmasının, azadlığı üçün edilən müraciətlərin bu qərara ciddi təsiri oldu. Qərarı ədalətli hesab etməsəm də, hər halda, sağ ol deyirəm ki, 3 il yarım cəzasını azaltdılar".

❑ **Cavanşir ABBASLI**

**Raqif Kərimli:** "Belə bir qərar gözləmirdik"







YENİ MÜSAVAT
N 113 (6434) 25 may 2016

**Paris kommersiya məhkəməsinin mayın 23-də verdiyi qərara əsasən, əvvəllər azərbaycanlı iş adamı Hafiz Məmmədova (“Hafka”) məxsus olan Fransanın “Lans” futbol klubu yeni sahibini tapıb.**



# “Hafka” milyonlarını da itirdi, klubunu da...

## Fransa məhkəməsi “Lans”ı rəsmən Hafiz Məmmədovdan aldı; klubun yeni sahibləri arasında erməni əsilli livanlı da var

Mayın əvvəlində Paris məhkəməsi “Lans” futbol klubunun səhmlərinə nəzarət edən H. Məmmədova məxsus «RLS Holding» şirkətini müflis elan edib. Bununla da “Hafka” iki il əvvəl aldığı “Lans” klubu üzərində mülkiyyət hüququnu itirib. Məhkəmənin belə qərar verməsinə səbəb “Hafka”nın müflis olması nəticəsində onun klub qarşısında öhdəliklərini yerinə yetirə bilməməsidir. Hafiz Məmmədov “Lans” klubunun büdcəsinə 5.6 milyon avro vəsaiti ödəyə bilməyib. O, “Lans”ın səhmlərinin üçdə ikisini 20 milyon avroya almışdı, daha sonra biznesmen kluba 6 milyon avro da yatırım qoymuşdu. Lakin klubu alandan az sonra “Hafka”nın “Baghlan Group” şirkəti müflis olub və oliqarxın biznesi çöküb. Nəticədə o, Fransa klubuna sponsorluq etmək imkanlarını itirib.

Fransa mətbuatı bir neçə gün əvvəl yazmışdı ki, “Lans”ın yeni sahibi Kot-d İvuardan olan biznesmen, CKG şirkətlər qrupunun sahibi Çarlz Kader Qura olacaq. O, “Lans”ın inkişafına 30 milyon avro yatırmağa və 5.6 milyon avroluq borcunu ödəməyə hazır olduğunu bildirmişdi. Amma məlum olub ki, komandanın yeni sahibləri arxasında Madridin “Atletiko” klubunun nümayəndələri İqnasio Aquillo (Madrid klubunun İdarə Heyətinin üzvü) və Migel Anhel Hil (“Atletiko”nun baş direktoru) Lüksemburqun “Solferino” şirkəti, həmçinin təsisçiləri erməni əsilli livanlı Jozeüf-Mari Oqurlyan və fransalı Jil Fretinye olan Britaniyanın “Amber-Capital” investisiya şirkəti olublar. “Hafiz Məmmədov mənim əziz dostumdur», - bunu məhkəmədən sonra mətbuat konfransında İqnasio Aquillo deyib. «O, ”Lans"ın uğurları üçün çox şey edib, xeyli pul yatırıb. Lakin indi onun çətinlikləri var, klub isə gözləyə bilməz. Dostluğumuza görə mən Hafiz Məmmədovu qane edəcək həll yolu axtardım. Biz əlimizdən gələni etdik ki, Məmmədovun “Lans”ın həyatındakı rolunu qoruyub saxlayaq. Ümid edirəm ki, o tezliklə öz problemlərini həll edəcək".



**Məhkəmənin bu qərarına etiraz edəcəyini bildirən Hafiz Məmmədov artıq Fransaya vəkillərini göndərdiyini bildirib.** (virtualaz.org). “Mən hələ ”RCL Holdinq"in müflis elan edilməsi ilə bağlı sənədləri almamışam. Məhkəmənin 4 may tarixli qərarı da mənə göndərilməyib" deyə, iş adamı bildirib. “Təəssüf ki, bizim üçrəngli bayrağımız artıq ”Lans"ın üzərində dalğalanmır. İki il boyu mən bütün qapıları döydüm, kömək istədim, ancaq bütün kabinetlərdə mənə rədd cavabı verdilər. Axı bu təkcə Hafiz Məmmədovun yox, bütün ölkənin şərəfi idi! Təəssüf ki, keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun və onun qudası Cahangir Hacıyevin çirkin, alçaq oyunları sayəsində mənim biznesimə sarsıdıcı zərbə vuruldu. Bu işdə bəzi başqa məmurlar və biznesmenlər də iştirak etdi" - H.Məmmədov məhkəmənin ilk qərarından sonra deyib.

**“Hafka” iddia edib ki, ona borclu olan bəzi adamlar və şirkətlər də vədlərinə xilaf çıxıblar, borclarını ödəməyiblər:** “Mənim bütün şirkətlərim defolta yuvarlandı, banklarla problem başladı. Bu situasiyada klubu əldə saxlamaq üçün mənə kömək etməli idilər. Mən klubu Azərbaycanın istənilən oliqarxına güzəştə getməyə hazır idim, ancaq heç kim razılaşmadı. Beləliklə, biz ”Lans"ı itirdik".

Xatırladaq ki, Hafiz Məmmədov Beynəlxalq Bankdan 100 milyonlarla manat krediti 2008-ci ildə yaratdığı “Baghlan Group” holdinqin adına götürüb. Ancaq bir müddət sonra - konkret olaraq 2013-cü ilin ortalarında, həmin dövrə qədər ən gəlirli şirkətlərdən biri hesab olunan “Baghlan Group” holdinqin maliyyə vəziyyətinin ağırlaşdığına dair məlumatlar yayılmağa başladı. Hətta 2013-cü ilin sonlarına yaxın şirkətin banklara olan külli miqdarda borcunu ödəyə bilmədiyini əsas göstərən reytinq agentliyi “Baghlan Group” holdinqin kredit reytinqini aşağı saldı. Sonradan isə ümumiyyətlə, şirkətə verdiyi reytinqi geri çağırdı və onun iflas ərəfəsində olduğunu bəyan etdi. “Hafka” aldığı krediti qaytarmadığına görə Beynəlxalq Bank tərəfindən hətta məhkəməyə də verilmişdi. “Beynəlxalq Bank işi” ilə bağlı istintaqda onun adı hallansa da, “Hafka”nın nə bankla məhkəməsi, nə istintaqla bağlı sorğu-suala çəkilib çəkilməməsi barədə də indiyədək dəqiq bilgi yoxdur. Hər halda, digərlərin ittiham edən “Hafka” düşdüyü duruma görə arada özünü də qınasa yaxşı olar.

❑ **“Yeni Müsavat”**

# Sabiq məmurun oğlu vəhhabilərə niyə üç milyon avro verib?-şok təfərrüat

## “Avtonəqliyyatservis” Departamentinin sabiq rəisi Çingiz Baxşıyevin Vyanadakı mağazasının gəlirləri vəhhabi təriqətinə ötürülüb; onun adı vəzifə alverində də hallanır

**Nəqliyyat Nazirliyinin sabiq məmuru Çingiz Baxşıyev mətbuatın gündəminə evindən 50 kiloqram qızıl oğurlanan məmur kimi gəldi. Məlum oldu ki, sabiq müşavir Rövşən Əhmədov adlı birini evindən 50 kiloqram qızıl oğurlamaqda suçlayıb, ondan hüquq-mühafizə orqanlarına şikayət yazıb. Bundan sonra Ç.Baxşıyevin gizli və şübhəli biznesi, əlaqələri haqda ciddi araşdırmaların başlanmasına yol açan məlumatlar ortaya çıxdı. Redaksiyamıza Ç.Baxşıyevin ölkədən kənara çıxararaq Avropa dövlətlərindən birində biznesə yatırdığı milyonlar haqda ilginc məlumatlar daxil olub.**



Çingiz Baxşıyev

Qaynağımız bildirib ki, 2015-ci ilin əvvəlində Çingiz Baxşıyev ölkədən 7 milyon avro çıxararaq Avstriyanın paytaxtı Vyana şəhərində böyük bir mağaza alıb. Brend malların satışı ilə məşğul olan mağazanın idarəedicilərı Ç.Baxşıyevin oğlu Nəriman Baxşıyev və kürəkəni Ayaz İbrahimovdur. Qaynağımız bildirir ki, mağaza işə başlayandan bir neçə ay sonra vəhhabi olan Ayaz İbrahimov mağazanın 3 aylıq dövriyyəsini götürərək təriqətinin ehtiyacları üçün xərcləyib. Bundan sonra mağaza iflas olaraq bağlanıb. Vəziyyət haqda Ç.Baxşıyevə məlumat verən ailə üzvləri mağazanın yenidən fəaliyyətə başlaması üçün əlavə 3 milyon avro tələb olunduğunu bildiriblər. Bundan sonra müşavir qızı vasitəsilə 3 milyon avronu kürəkəninə verib və mağaza yenidən açılıb.

Ç.Baxşıyevin bunca sərvətinin qaynağı haqda suallara cavab axtararkən çox maraqlı faktlar üzə çıxdı.

Öyrəndik ki, Ç.Baxşıyev “Avtonəqliyyatservis” Departamentinin rəisi olarkən Nəqliyyat Nazirliyinin 3 saylı avtobus parkının arxivi yanıb. Bundan sonra parkın 10 avtobusu satılaraq özəlləşdirilib.

Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) rəhbəri olarkən də Ç.Baxşıyev özünü daha çox pul qazanmağa meyilli şəxs kimi tanıdıb. Belə iddia var ki, Nəqliyyat Nazirliyi Quba Regional Şöbəsinin mərhum rəisi Zakir adlı şəxsdən 200 min manat alıb. Onu Bakıya “yağlı” vəzifəyə gətirəcəyinə vəd verib. Zakir vəzifəyə təyin olunmadan rəhmətə gedib. Bu gün də onun oğlu Bəxtiyarın Ç.Baxşıyevdən atasından aldığı pulu geri tələb etdiyi bildirilir. Taleh adlı şəxsdən isə 70 min manat alınmaqla onu DANX-ya baş məsləhətçi vəzifəsinə təyin etdirib. 2-3 aydan sonra Talehi şöbə rəisi keçirəcəyini vəd edib. 6 ay sonra Taleh təyinatın baş tutmayacağını anlayıb, pulu geri istəyib. Kadrların idarəsinin rəisi İmran Talehi dövlət qulluqçusu statusu vermədən işdən çıxarıb. Bu gün də pulunu vermir. Hazırda iş məhkəmədədir. İlyas adlı şəxsdən 100 min manat alaraq Nəqliyyat Nazirliyi Texniki Müayinə Şöbəsinin rəisi vəzifəsinə işə götürüb. Sonradan isə İlyası Lisenziya və Fərqlənmə Nişanlarının rəsmiləşdirilməsi xidmətinin tabeçiliyinə işə göndərib. Lakin İlyas aşağı vəzifəyə keçməyə razılaşmayıb və pulunu geri tələb edib. Ç.Baxşıyev İlyası kadrlar şöbəsinin rəisi Vilayət Əliyevin yanına göndərib. Deyib ki, “get, pulunu ondan al”. Bundan sonra məsələ Nəqliyyat Nazirliyi səviyyəsinə qalxıb, Çingiz Baxşıyevə töhmət verilib, Vilayət Əliyev və İlyas işdən azad olunub. İlyasın 80 min manatı qaytarılıb.

Çingiz Baxşıyev Anar Abbasovu Ekspedisiya Xidmətinə rəis təyin edib. Faktiki isə Ekspedisiya Xidmətinin heç bir fəaliyyəti olmayıb. Anar Abbasov öz vəsaiti hesabına texnikalar alıb, kadrlar yığıb. Xidmət fəaliyyətə başladıqdan sonra A.Abbasov Çingiz Baxşıyevə ayda 700-800 min manat verib. 2 ilə xidmət formalaşıb stabil gəlir gətirməyə başlayandan sonra A.Abbasov və onun kadrları işdən çıxarılıb. İşçilərə də deyilib ki, xidmətə qoyduğunuz vəsaiti A.Abbasovdan tələb edin.

Qaynağımız deyir ki, Ç.Baxşıyev Anar Abbasovun nüfuzundan və işi bilməyindən təşvişə düşüb. Düşünüb ki, özünün tutduğu posta - “Avtonəliyyatservis” Departamentinin rəisi vəzifəsinə təyin oluna bilər. Buna görə də Anar Abbasovun postuna Eynur Məmmədov təyin edib. Anar Abbasov qanunsuz olaraq işdən çıxarılması ilə bağlı bir çox ünvanlara müraciət edib. Lakin Ç.Baxşıyev onun müraciətlərinin qarşısını alıb.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 113 (6434) 25 may 2015



# Eksponatların tarixə nifrəti

Zamin HACI
zaminhaci@gmail.com

**Həmişəki kimi, yenə ətrafımızda baş naziri dəyişdilər, yenə Artur müəllim gündəmə gəldi. Qəzetlər yazdı ki, Artur Rasizadənin baş nazirliyi dönəmində Türkiyədə 7 baş nazir dəyişdirilib. Yeri gəlmişkən, bu ilin mayı Artur müəllim üçün başqa önəmli tarixin bayram edilməsi ilə yadda qalacaqdır: o, 1996-cı ilin mayında Azərbaycana baş nazir qoyulubdur və 2003-cü ildə ulduzlardan gələn bəla nəticəsində qısa müddətə vəzifəni gələcək prezidentə bağışlamasını çıxmaq şərti ilə, bu ilin mayında baş nazirliyinin düz 20 ili tamam olmuşdur! Türkiyə hələ şükür eləməlidir, bu 20 il ərzində Artur müəllim Yaponiyanın nə az, nə çox - 11 baş nazirinin dalıyca su atmışdır! Elə ona görə Yaponiyanın sunami basdı, neçə yapon yazıq oldu. Baş naziri dayanıqlı olan dövlətlərdə sabitlik yaranırmış.**

Ancaq Azərbaycanda tarixi eksponat təkcə Artur müəllim deyil ki... Yapistlərin çoxu belədir, qədim dövrlərdən bizə yadigar qalmışlar. Sadəcə, baş nazir mağmın adamdır, Elçibəy demişkən, əlimizə bir fağır baş nazir düşüb, sağdan da vururuq, soldan da. Bilirik bizə heç nə etməyəcək. Bəlkə haqqında yazanlara nəsə eləməyə Artur müəllimin heyi də qalmayıbdır. Bu gün onu yada salmağımın səbəbi isə elə qədimlik mövzusuna bağlıdır. Çox təəccüblü haldır: özü qədim eksponat olan yapistlər Bakının, Azərbaycanın qədim tarixinə qənim kəsilmişdir, yüzlərlə abidələrimiz dağıdılmış, buldozer qabağına verilib yox edilmişdir.

Bəzən dostlar xarici ölkələrdə gəzib-gördükləri binaların şəkillərini sosial şəbəkədə paylaşırlar. Misal üçün, bu yaxında tarixçi alim Altay Göyüşov Almaniyanın hansısa şəhərindəki... 12-ci əsrdən qalma binanın fotosunu paylaşmışdı! Təsəvvür edin, 800 il yaşı olan bir neçə qatlı, zamanın təsiri ilə qapqara qaralmış bir bina şəhərin içində durmaqdadır. Nə bir kəsin ağlına gəlir ki, onu qaşıyıb ağartsın, nə də buldozerlə dağıdıb yerində hotel-fahişəxanadan-zaddan bir şey tiksin. Bakıda isə cəmi yüz il qabağın binalarını darmadağın elədilər. "Sovetski" adlanan məhəllədəki neçə-neçə tarixi bina son günlər dağıdıldı, bunlardan biri Abbas Mirzə Şərifzadənin yaşadığı bina idi. Şərifzadə Azərbaycan teatr, kino sənətinin banilərindən biridir, ilk aktyorlarımızdan biri, ilk kino rejissorumuz sayılan adam idi, 1937-ci ildə elə indiki yapistlərin babaları onu güllələmişdi.

Şərifzadənin yaşadığı o tarixi binanı nəyin bahasına olursa-olsun qoruyub saxlamaq lazım idi. Ancaq Azərbaycan tarixinə düşmən kəsilənlər bunu etmədilər. Eyni zamanda bu cinayət əməlinə Azərbaycan Milli Elmlər Akademiyasının, Mədəniyyət Nazirliyinin də adı bulaşıbdır. Nazirlər Kabineti və Bakı ŞİH isə icraçıdır. İzah edim.

Hələ bir neçə ay qabaq, konkret yazsam 2016-cı ilin fevralında Yasamal Rayon İcra Hakimiyyətində "Sovetski"nin köçürülməsi komissiyasına başçılıq edən Səməd İslamov belə açıqlama vermişdi: "Ərazidə 171 tarixi abidə var ki, bunun 76-sı Nazirlər Kabinetinin və Mədəniyyət Nazirliyinin qərarı ilə tarixi əhəmiyyətə malik olmadığından sökülecək. Hazırda daha 8 tarixi bina, o cümlədən Mirzəağa Əliyev 115-də yerləşən Abbas Mirzə Şərifzadənin evi ilə bağlı Elmlər Akademiyası və Mədəniyyət Nazirliyi tərəfindən araşdırma aparılır. Onların gəldikləri qərardan sonra bəlli olacaq ki, həmin binalar da sökülsün ya yox". Mayda aparılan sökütü onların necə qərar verdiyini göstərir. Bax, indi biz AMEA və Mədəniyyət Nazirliyindən tariximizin düşmənlərinin adbaad siyahısını tələb etməkdə haqlı olarıq. Millətin də öz qərarı olmalıdır: bu alimlər və məmurları "sökmək" lazımdır, ya yox? Qoy ən azı AMEA alimcikləri bizə bildirsinlər ki, Şərifzadənin yaşadığı binanı nə üçün tarixi-mədəniyyət abidəsi siyahısından siliblər.

Hələ bu harasıdır, həmin ərazidə daha 21 bina Nazirlər Kabinetinin, konkret Abid Şərifovun (Alabala ləqəbli) imzası ilə tarixi abidələr siyahısından çıxarılıb, 23 mayda sökülməsinə icazə verilib.

Nazim Hikmət Stalini bəyənməzmiş. Şairin son sevgililərindən biri Vera Tulyakova xatirələrində yazır ki, bir gün İlya Erenburq Nazimdən soruşdu: "Doğrudanmı Stalinin heç bir bəyənilləsi cəhəti yox idi?" Nazim dedi: "Vardı. Gəl sənə bir əhvalat danışım. Bəlkə də bu, uydurmadır, ancaq yaxşı əhvalatdır. Bir gün Moskvanın yenidən qurulması projesini hazırlayan memar Stalinlə görüşdə deyir ki, gəlin Kreml ətrafındakı kilsəni sökək. Bununla Qızıl Meydana daha geniş yol açılar. Masanın üstündə ərazinin maketləri varmış, memar kilsənin maketini yıxıb vəziyyəti daha əyani göstərir. Bu vaxt Stalin qəzəblə bağırır: "Qoy yerinə kilsəni! Qaytar qoy yerinə deyirəm sənə!" Beləcə, kilsə salamat qalır.

Yazıqlar olsun, bizdə heç vaxt belə qışqıranlar olmadı.

# Türkiyə ilə Avropa Birliyi gizli savaşda

## Qaçqın mövzusunda Ankara ilə danışıqlara oturan Brüssel AB üzvlüyü məsələsində ciddi fikir ayrılıqlarının olduğunu gizlədə bilmir

**Avropa Birliyi ilə Türkiyə arasında qaçqınlar mövzusundakı fikir ayrılığının ardınca indi də bu quruma üzvlük mövzusu müzakirələri aktuallaşıb. Gözlənildiyinin əksinə olaraq, AB və Türkiyə arasındakı viza anlaşmasından sonra Türkiyəyə qarşı münasibət daha da sərtləşib.**



Xatırladaq ki, AB-Türkiyə viza anlaşması ən son olaraq Türkiyədə terror əleyhinə qanunun dəyişdirilməsi tələbi ilə dalana dirənib. Türkiyə hökuməti terrorla mübarizə qanunlarının daha da sərtləşdirilməsini, terrorçularla birlikdə terrora dəstək verən şəxslərin də cəzalandırılmasını təklif edir. AB isə daha dəqiq terror tərifi tələb edir. Bu isə Ankarada sərt təpki ilə qarşılanıb, prezident Ərdoğan dolayısı ilə güzəştə getməyəcəklərinə, hətta anlaşmadan imtina edə biləcəklərinə işarə edib. Prezidentin müşaviri Yiğit Bulut isə Avropa Birliyi ilə gömrük anlaşmasını durdura biləcəklərini deyib. Bu da əslində həm də Ankaranın AB üzvlüyü ilə bağlı çox da ümidli olmadığını göstərir.

Yeri gəlmişkən, bir qədər əvvəl Britaniyanın baş naziri Devid Kameron Türkiyənin birliyə üzvlüyünün doğuracağı "təhlükələrlə" bağlı iddialarına cavab olaraq "Türkiyənin 3000-ci ildə" AB üzvü olacağını deyib. Sitat: **"Hazırkı sürətlə Türkiyənin üzvlüyü 3000-ci ildə reallaşar. Bunun gerçəkləşməsi ehtimalı belə onlarla il tələb edəcək və o zaman belə bizim "yox" demək imkanımız olacaq. İngiltərə və hər hansı digər AB üzvü ölkənin üzvlüklə bağlı veto hüququ var".**

BBC-nin məlumatına görə, Avropa Parlamentinin sədri Martin Şults da Türkiyənin Avropa dəyərlərindən "nəfəs kəsən bir sürətlə" uzaqlaşdığını və bunun üzvlük prosesini mümkünsüz hala gətirdiyini deyib.

Məsələ burasındadır ki, son olaraq qaçqınlar və viza anlaşması mövzularının AB ilə Türkiyə arasında münasibətləri daha da istiləşdirəcəyi gözlənilsə də, əksinə oldu. Məlum olduğu kimi, hazırda Türkiyədə 2,7 milyon nəfər suriyalı qaçqın var. Bunların bir qismi Avropaya getməyə çalışır və bunun üçün müxtəlif yollardan istifadə edir. Avropa isə qaçaq miqrant axınının qarşısını almaq üçün Türkiyə ilə anlaşmaya gedərək 3 milyard avro yardım qarşılığında qaçqınların Yunanıstandan geri qaytarılması və qaytarılan sayda qaçqının seçməli olaraq Avropaya miqrasiyasına icazə verilməsi haqda müqavilə imzalanıb. Bunun qarşılığında isə AB Türkiyə vətəndaşlarına birliyə üzv ölkələrə vizasız səyahət hüququ tanıyacaqdı. Ancaq müqavilə imzalandıqdan sonra AB Türkiyədən viza şərti üçün 72 bənddən ibarət düzəliş tələb etdi, eyni zamanda 3 milyard avronun Türkiyə dövlət qurumlarına deyil, beynəlxalq təşkilatlar vasitəsilə xərclənəcəyini bəyan etdi. Bu isə Ankarada narazılıqla qarşılandı.

Son olaraq görünən odur ki, viza məsələsində anlaşma dalana dirənib, pulu isə AB yalnız beynəlxalq qurumlar vasitəsilə ödəyir. Bundan az sonra Almaniyada bir komediya verilişi aparıcısının Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı təhqir edən şeir oxumasından sonra Ankara hərəkətə keçərək şeirin müəllifinə qarşı iddia qaldırdı. Bu hadisə Avropa mediasının Türkiyə hakimiyyətinə qarşı hücumuna səbəb oldu.

İndi isə gərginlik ən üst səviyyədədir. Məsələ ondadır ki, hazırda Avropa Birliyi qaçqınlar mövzusuna görə Ankara ilə anlaşmaya getməyə məcburdur. Çünki Avropa liderləri Türkiyənin böyük sayda qaçqına ev sahibliyi etdiyini bilir. Əgər Türkiyə bu qaçqınların Avropaya keçidinə bir qədər imkan yaratsa, Avropa ölkələri ötən ilin sonlarında olduğu kimi çətin vəziyyətə düşə bilər. Lakin eyni zamanda proses, necə deyərlər, getdikcə açılmağa doğru gedir və bu səbəbdən də çox şeyləri artıq gizlətmək mümkün olmur.

Bu prosesdə ən səmimi görünən Avropa mediasıdır. Maraqlıdır ki, Avropa liderləri daha ehtiyatlı, üstüörtülü danışsalar da, media daha açıq və kəskin şəkildə mövqe ortaya qoyur. Son olaraq Britaniyanın "Times" qəzeti baş yazısında Türkiyənin AB üzvlüyü prosesini "dəlilik" adlandırıb. BBC-nin məlumatına görə, qəzet ən yaxın zamanda üzvlük prosesinin dayandırılmasını təklif edib.

Qəzet yazır ki, daha əvvəl Avropa Türkiyə hakimiyyətinə nümunə olaraq baxsa da, son illərdə vəziyyət dəyişib və Avropa artıq Türkiyəyə güvənmir. Ancaq bütün bunlara baxmayaraq, 1999-cu ildə start götürən Türkiyənin AB üzvlüyü prosesi davam edir. Qəzet yazır ki, Avropa artıq Türkiyədə islahatların davam edəcəyinə inanmır. Eyni zamanda məqalədə Türkiyə hakimiyyətinin Avropa ilə sərt dildə danışması üzvlük prosesini yaralayır. Məqalədə bu və digər məqamlar qeyd edilərək Avropanın səmimi olması və Türkiyənin üzvlük məsələsinə son qoymasını elan etməsi təklif olunur. Sitat: **"Bu məsələnin açıqlanması lazımdır. Həqiqət budur ki, 75 milyon əhalisi olan** *(2050-ci ildə 91 milyon olacağı gözlənilir)* **Türkiyə Avropanın onu "həzm etməsi" üçün çox böyükdür".**

Bu mənzərədən isə çox sadə bir sxem ortaya çıxır. Avropa Birliyi Türkiyə ilə yaxın qonşu olaraq əməkdaşlıq etmək istəyir, ancaq bunun üçün Türkiyənin AB standartları ilə bağlı şərtlərə riayət etməsini tələb edir. Türkiyə hakimiyyəti isə AB üzvlüyündə maraqlı olsa da, AB ilə qarşılıqlı güzəşt, daha doğrusu bərabərhüquqlu əməkdaşlıq prosesi istəyir. Bu isə Avropa tərəfindən qəbul edilə bilməz. Ancaq Türkiyəyə ehtiyacı olan Avropa ölkələri indi səmimi olmasalar da, görüntü xətrinə olsa da, üzvlük prosesinin davam etdirilməsini istəyirlər. Çünki qaçqın mövzusunda hazırda Avropa Türkiyəyə möhtacdır. Türkiyə hakimiyyəti isə görünən odur ki, Avropa Birliyi standartlarını qəbul etməyə hazır deyil, ancaq bununla belə, bütövlükdə prosesin dayanması Türkiyə dövlətinin maraqlarına cavab vermədiyi üçün sözdə belə olsa prosesin davamında maraqlıdır.

Bu mənada görünən odur ki, yaxın zamanlarda AB üzvlüyü mövzusunda müsbətə doğru nə dəyişməyəcək, əksinə, qarşılıqlı tənqidlər, ittihamlar artacaq.

❑ Kənan RÖVŞƏNOĞLU

# İsrail və İrana iki rəsmi şəxsin kritik səfəri arxasındakı tək motiv

# Azərbaycan Qarabağ planına beynəlxalq dəstək axtarışında - işğalçının təcridi güclənir

## Müharibə ehtimalının gündəmdə olması Ermənistanı öncə diplomatiya savaşında məğlub etməyi və təkləməyi diktə edir; Tehran və Təl-Əvivdən Bakıya qiymətli Qarabağ dəstəyi - “Torpaqlar sahibinə qaytarılmalıdır...”

**Bugünlər Azərbaycanın iki yüksək çinli rəsmi şəxsinin təxminən eyni vaxtda xaricə etdiyi səfərlər diqqət çəkdi. Onlardan biri - xarici işlər nazirinin müavini Araz Əzimov İsraildə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı isə İranda oldu.**




İlk baxışda sıradan səfər təəssüratı bağışlaya bilər, ancaq bölgədə, Azərbaycan ətrafında, məxsusən də Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranmış mürəkkəb situasiya nəzərə alınarsa, hər iki ziyarətin önəmi aydın olar. Bu iki səfəri əhəmiyyətli edən daha bir məqam isə İran və İsrail arasındakı ənənəvi gərgin, düşmən münasibətlərdir.

Bəllidir ki, Azərbaycan özünün böyük qonşularından biri kimi, 35 milyon güneyli soydaşımızın yaşadığı İranla yaxşı əlaqələrə malikdir. İsraillə münasibətlər də yüksələn xətlə davam edir və ölkəmizin strateji maraqlarına tam cavab verir. Yəhudi dövləti ilə Azərbaycan arasında iqtisadi-ticari, energetika (İsrail Bakı-Ceyhan neftinin alıcılarındandır), humanitar (orada sanballı Azərbaycan diasporu var) texnologiya sahəsində əməkdaşlıq genişlənməkdədir. Xüsusən də hərbi və hərbi-texniki sahələrdə iş birliyini yüksək səviyyəli saymaq olar. Azərbaycan ordusunun modernləşdirilməsində bu amilin məxsusi yeri var və onu apreldəki 4 günlük uğurlu müharibədə gördük.

***

Rəsmi məlumata görə, Araz Əzimov İsrailin Xarici İşlər Nazirliyi, parlamenti və digər dövlət orqanlarının rəsmiləri ilə görüşlər keçirib. Görüşlər zamanı iki ölkə arasında əməkdaşlığın aktual məsələləri, eləcə də Yaxın Şərq və Cənubi Qafqazda aid regional məsələlər, o cümlədən nüvə təhlükəsizliyi məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Bütün dövlətlərin, o cümlədən İranın nüvə enerjisindən sülh məqsədi ilə istifadə hüququnun olduğu bir daha təsdiq edilib. Həmçinin Ermənistanın Azərbaycana və bölgəyə qarşı törətdiyi təhlükələr haqqında qarşı tərəfə dolğun məlumat verilib.

A.Əzimovun keçirdiyi görüşlərdə aparıcı mövzunun Qarabağ, o sırada iki ölkə arasında hərbi sahədə əməkdaşlığın daha da inkişaf perspektivləri olduğu şəksizdir. Unutmayaq ki, Əzimov uzun illər Azərbaycan prezidentinin Qarabağ danışıqlarında xüsusi nümayəndəsi olub. Diqqətçəkicidir ki, onun İsraildə görüşdüyü yüksək çinli şəxslər arasında Knessetin *(parlament)* Xarici əlaqələr və müdafiə məsələlərinin sədri Zaxi Hanegbi də olub.

Doğrudur, İsrail mediası Əzimovun səfəri barədə xəbərlərdə Azərbaycan tərəfinin rəsmi məlumatından azacıq fərqli olan bir detalı açıqlayıb. Jewish.press.com saytı yazıb ki, Araz Əzimov Zaxi Hanegbi ilə görüşdə guya İranın nüvə ambisiyasından imtina etmədiyini söyləyib. Saytın iddiasına görə, Əzimov bu fikri İranla bağlı məsələnin müzakirəsində deyib.

Lakin artıq məlumdur ki, Azərbaycan XİN-i bu detalı təsdiqləməyib və görüşlə bağlı “danışıqlarda İranın nüvə enerjisindən sülh məqsədi ilə istifadə hüququnun olduğu bir daha təsdiq edilib”, fikrini işlətməklə kifayətlənib. Sağlam məntiq də onu diktə edir ki, Azərbaycan-İsrail əlaqələri İranla *(və ya hər hansı başqa tərəfdaş ölkə ilə)* münasibətləri gərginləşdirmək hesabına qurulmamalıdır. Buna heç lüzum da yoxdur.

Sübut kimi Bakının həm Tehran, həm də Təl-Əvivlə son illərdəki isti münasibətlərini, o cümlədən prezident İlham Əliyevin Tehrana son uğurlu səfəri və orada imzalanmış sənədləri göstərmək olar. Həmin sənədlər arasında işğalçı Ermənistanın iqtisadi-kommunikasiya təcridini daha da gücləndirən anlaşma protokolu da var. Üstəlik, bizim Qarabağ problemimiz, gündəmdə olan müharibə ehtimalı düşmənlərin deyil, dost-tərəfdaşların sayını artırmağı zəruri edir. Ki, böyük haqq savaşı zamanı siyasi-diplomatik müstəvidə yetərli müdafiəçilərimiz olsun və Azərbaycan öz hərbi qələbəsini siyasi qələbəyə çevirə bilsin.

***

Yeri gəlmişkən, 4 günlük müharibə zamanı İsrail kimi rəsmi Tehran da Azərbaycana münasibətdə kifayət qədər obyektiv mövqe tutdu, ərazi bütövlüyümüzü dəstəkləyən açıqlamalar verdi. Bu xüsusda Araz Əzimovun İsrail səfəri ilə təxminən eyni vaxtda Dini Komitə sədri Mübariz Qurbanlının İrana getməsi həm yerinə düşür, həm A.Əzimovun səfəri ilə bağlı bəzi neqativləri kompensasiya etmək xarakteri daşıyır, həm də və ən əsası, Bakının hər iki dövlətə verdiyi önəmi nümayiş etdirir.

Bu önəm Qarabağ məsələsinin olduqca həssas bir mərhələyə girdiyi, Bakının məsələdə güclü beynəlxalq dəstək axtarışına çıxdığı və işğalçını siyasi-diplomatik alanda da təcrid eləməyə çalışdığı dönəmdə mühüm dəyər daşıyır. Mübariz Qurbanlının İran səfəri də bu kontekstdə uğurlu sayıla, Bakının aktivinə yazıla bilər.

Məlumatlara görə, komitə sədri Tehranda İranın Ali Dini liderinin nümayəndəsi Ayətullah Müctəid Möhsün Şəbüstəri ilə də görüşüb. Komitə sədri bu görüşdə dünyanın bəzi regionlarında dini və etnik zəmində qarşıdurmaların mövcud olduğunu və həmin qarşıdurmalar nəticəsində minlərlə insanın qətlə yetirildiyini xatırladıb. Qeyd edib ki, silahlı qruplaşmalar İslam dini adından sui-istifadə edərək terrorçuluqla məşğul olurlar.

Ermənistanın Azərbaycana qarşı təcavüzünə toxunan M.Qurbanlı deyib ki, erməni vandalları Şuşada, Ağdamda və işğal altındakı digər rayonlardakı məscidləri dağıdıb, təhqir ediblər. **“Ermənilər məscidləri dağıtmaqla yalnız Azərbaycana qarşı deyil, həmçinin İslam dininə etiqad edənlərə qarşı təhqiramiz hərəkət ediblər. Bunlar cavabsız qalmamalıdır”** - azərbaycanlı yetkili qeyd edib.

Öz növbəsində Ayətullah Şəbüstəri bildirib ki, Dağlıq Qarabağ Azərbaycana məxsusdur və işğal altındakı torpaqlar qaytarılmalıdır. O, dünyada müsəlmanlara qarşı ayrı-seçkiliyin mövcud olduğunu söyləyərək, İslam həmrəylinin zəruriliyini də vurğulayıb. Azərbaycanda məscidlərin bərpasını və dini dəyərlərin qorunmasını yüksək qiymətləndirən Şəbüstəri eyni zamanda “qonşu və dost ölkənin inkişaf etməsinin sevindirici olduğunu” bildirib...

***

**Qarabağ məsələsində Tehranın Azərbaycana dəstəyi indi ikiqat önəmlidir. Çünki işğalçı Ermənistan İranı həmişə özünə Rusiyadan sonra “ikinci nəfəslik” hesab edib. Bu nəfəsliyi qapatmaq Azərbaycanın strateji hədəflərindən biridir. Çünki o halda problemin ədalətli həlli tezləşəcək. Bundan ötrü İranla hərbi əməkdaşlıq lazım gələrsə, ona da getmək olar. Aprel döyüşlərindən sonra Ermənistanla hərbi əməkdaşlıq təklifini rədd edən İsraillə əlaqələrə xələl gətirmədən təbii ki...**

❑ **Siyasət şöbəsi**

# Elektorat avtoritarizmi seçirsə...



**Xalid KAZIMLI**

**Bir zamanlar qonşu ölkələrdə keçirilən seçkiləri, gedən siyasi prosesləri diqqətlə izləyər, demokratik qüvvə saydığımız partiyaya, siyasi bloka azarkeşlik edərdik.**

Hesab edərdik ki, qonşu dövlətlərdə hakimiyyətə gerçək demokratların gəlməsi, demokratik düzənin bərqərar olunması istər-istəməz öz ölkəmizin daxili siyasi atmosferinə də təsir edəcək.

Edəcəkdi, ya etməyəcəkdi, indi bunu bilmək, birmənalı demək çətindir. Ən əsası da ona görə ki, qonşu dövlətlərin heç birində demokratik düzən bərqərar olunmadı.

Rusiyada Putin bütün demokratik qüvvələri zəiflədib sıradan çıxardı, öz səltənətini qurdu.

İranda bugünlərdə məğlubiyyətinin 10 ili tamam olan “Musəvi inqilabı” baş tutmadı, mühafizəkarlar qalib gəldi.

Türkiyədə Ərdoğanın getdikcə şəxsi hakimiyyətini möhkəmlədib avtoritar rejim sahibinə çevrilməsi prosesi getdi.

Gürcüstanda revanşist qüvvələrlə dalaşa-dalaşa ölkəni abadan etmək istəyən Saakaşvilinin hakimiyyət müddəti bitincə ölkə yavaş-yavaş köhnə relsinə döndü.

Ermənistan demokratik düzəndən çox-çox uzaqdaydı, indi də uzaqdır.

Beləcə, adına demokratiya deyilən idarəetmə və yaşam tərzi sərhədləri keçərək regionumuza gəlmədi, gətirilmədi. Bu illərdə bölgəyə və ölkəyə hər cür epidemiya, hər cür pis, yoluxucu şeylər gəldi, bir demokratiya və haqq-ədalət gəlmədi.

Getdikcə tam şəkildə sübut olunur ki, bu *(demokratiyanın bərqərarı)*, gerçəkdən də xalqdan, cəmiyyətdən, millətin intellektual səviyyəsindən, vicdanlılıq əmsalından, elektoratın demokratiyaya hazırlığından asılı məsələdir.

Heç ola bilməz ki, haqq-ədaləti, demokratik idarəçiliyi sevən, azad seçkinin faydalarının nə olduğunu bilən, belə bir seçki keçirməyi gerçəkdən arzulayan şüurlu cəmiyyəti avtoritar rejimlə idarə etmək mümkün olsun.

Bunu o ölkələrdə bərqərar etmək və getdikcə gücləndirmək olur ki, xalqın özü güclü əl tərəfindən idarə olunmaq istəyir.

Budur, Türkiyədə neçə onilliklərdir ki, dürüst, qanuni seçkilər keçirilir, hökumətlər qurulur, amma hələ də demokratiya sözün tam anlamında bərqərar olunmayıb. Bir güclü liderin ortaya çıxması və hakimiyyətin verdiyi bütün rıçaqlardan istifadə edərək avtoritar rejim qurmaq istəməsi kifayət etdi ki, Türkiyə ictimaiyyəti ona belə bir haqq tanısın.

Bu gün artıq ölkənin yarısı Rəcəb Tayyib Ərdoğana biət edir, onu az qala Osmanlı sultanlarının siyasi varisi sayır.

Ərdoğanı bu qədər güclü edən onun xalqdan aldığı səsdir, etimad votumudur. Türkiyə xalqı son illər keçirilən bütün seçkilərdə demokratiyanı yox, avtoritarizmi seçib. Ona zor göstərən, onun səsini saxtalaşdıran yoxdur. Hakim AKP müxtəlif manipulyasiyalarla, tovlamalarla, seçki texnologiyaları ilə xalqdan lazımi qədər səs alır.

İndi iş elə bir əndazəyə gəlib çıxıb ki, insanlar özlərini prezidentin audensiyasında sultanın hüzurundaymış kimi aparırlar. Təkcə qurultayda Ərdoğanın adı çəkiləndə qopan gurultu-bağırtı və müraciətinin oxunması zamanı zalda olanların hamısının bir nəfər kimi ayağa qalxması hadisəsi göstərir ki, ölkə avtoritarizmin girdabına düşməkdədir.

Əvvəllər öz komandasının üzvləri arasında onun bəzi qərarlarını müzakirə edən, nəyin düzgün, nəyin yanlış olması barədə Ərdoğana bir söz deyənlər vardısa, indi ətrafında yalnız ləbbeyk deyənlər qalıb. İndi onun hər sözü qanundur, direktivdir, mütləq həyata keçirilməli olan şah fərmanı kimi bir şeydir.

Bir zamanlar biz məhz bu ölkəni özümüzə örnək götürürdük, arzulayırdıq ki, gün gəlsin, bizdə də, Türkiyədə olduğu kimi dürüst seçkilər keçirilsin, ölkəni idarə edən hakimiyyət komandaları parlamentdə formalaşsın.

Bu nailiyyətə yetmək hələlik bizə nəsib olmayıb. Əvəzində indi Türkiyə siyasiləri bizdə olduğu prezident üsul-idarəsinə keçmək istəyirlər. Artıq onların ən böyük siyasi kayihələri və iki sözlərinin biri budur.

Biz müstəqil dövlət olaraq yaşadığımız bu 25 ildə qardaş Türkiyəyə çata bilmədik, əvəzində Türkiyə ayaq saxlayıb bizi gözlədi və bizə qoşuldu. Ta heç nə.

YENİ MÜSAVAT
N 113 (6434) 25 may 2016



# "Ermənistan kimyəvi silahları qeyri-qanuni yollarla əldə edir"

**Ekspert:** "Ermənilər elə duruma düşmüşdülər ki, əllərinin altında nüvə bombası olsaydı, onu da atardılar"

**Aprel ayında cəbhə xəttində yaşanan gərginlik sonrası düşmən tərəf təxribatlarından əl çəkməyərək, Azərbaycanın mülki əhalisinin daha sıx olduğu ərazilərinə "çirkli bomba"lar yağdırdı. Ermənistan rəsmiləri də nüvə silahlarının olduğunu açıq şəkildə etiraf edirlər.**

Bu məsələyə İstanbulda keçirilən Dünya Humanitar Sammitində çıxışı zamanı prezident İlham Əliyev də toxunub. Ölkə başçısı bildirib ki, Ermənistanın parlament rəsmiləri, siyasətçiləri aprel ayında elan etdilər ki, ölkənin nüvə silahı - "çirkli bomba"sı var: "Buna beynəlxalq ictimaiyyət tərəfindən reaksiya verilməlidir. Ermənistanın nüvə təhdidi dayandırılmalıdır".

**Hərbi ekspert Üzeyir Cəfərov** "Yeni Müsavat"a bildirib ki, adətən müharibə aparan tərəf çıxılmaz vəziyyətə düşdüyü zaman qadağan olunmuş silahlara əl atır: "Ölkə başçısı səsləndirdiyi fikrində haqlıdır. Həqiqətən də Ermənistan aprelin əvvəllərində düşdüyü çətin vəziyyətdən özünü xilas etmək üçün bir sıra addımlar atdı. Eyni zamanda onlar qadağan olunmuş silahlardan da istifadə etdilər. Təkcə qadağan olunmuş mərmilər deyil, "çirkli bomba"lardan da istifadə etdilər. Bütün bunların bir məqsədi var ki, ermənilər əhalimiz arasında panika yaratmaq istəyirdilər ki, buna da nail olmadılar. Ermənistan elə bir dövlətdir ki, onlar heç bir beynəlxalq hüquq və normaları tanımırlar. Həmin faktlar Azərbaycanda akkreditə olunmuş səfirliklərin hərbi attaşelərinə çatdırılır. Hərbi attaşelər də öz növbəsində təmsil olunduqları ölkələrin müvafiq qurumlarına bu haqda arayış təqdim edirlər. Bu məqamda beynəlxalq qurumlar hərəkətə gəlməlidirlər. Elə etməlidirlər ki, həmin silahların yoxlanılması ilə bağlı Ermənistanda müəyyən iş aparılsın. Bu iş aparıldıqdan sonra biz konkret fikir bildirə bilərik ki, ermənilərin hansı qadağan olunmuş silahları var. Ermənistan indiyə qədər əksər yoxlamalardan kənarda qalıb. Orada normal şəkildə hansısa bir yoxlama aparılmayıb ki, ölkənin bəyan etdiyi silahlarla, real silahları arasında hansı uyğunsuzluqların olduğu bilinsin".

**Ekspert bildirib ki, Ermənistan bu kimi silahları qeyri-qanuni yollarla əldə edir:** "Bu silahları da məhz işğal olunmuş ərazilərdə istifadə edib, orada da gizlədirlər. Bu baxımdan, münaqişə nə qədər tez öz həllini taparsa, bir o qədər yaxşı olacaq. Yoxsa bədnam qonşularımız həmin silahları gətirib işğal olunmuş torpaqlarımızda saxlaya bilərlər və təkcə Azərbaycana qarşı deyil, o cümlədən Gürcüstana, Türkiyəyə qarşı da istifadə edərlər. Gürcüstanın adını ona görə çəkirəm ki, onlarla ruslar arasında müəyyən anlaşılmazlıqlar var. Ruslar bu məsələdə də Ermənistandan istifadə edə bilərlər. Beynəlxalq konvensiyaların tələbləri artıq Ermənistan tərəfindən pozulub. Azərbaycan bunu sənədlərlə sübut edib. İndi isə beynəlxalq qurumlar buna reaksiya verməlidirlər. Çox maraqlıdır ki, bir dəfə də olsun ATƏT-in Minsk Qrupu bununla bağlı heç bir reaksiya bildirməyib".

❑ Əli RAİS

**Türkiyədə növbəti dəfə anti-İŞİD əməliyyatı keçirilib. Terror qruplaşmasına qoşulmaq istəyən şəxslər saxlanılıb və çoxlu sayda silah-sursat ələ keçirilib. Əməliyyat Türkiyənin Qaziantəp şəhərində olub. Polis həmçinin Suriyaya keçmək istəyən 10 nəfəri həbs edib ki, onlar arasında azərbaycanlılar da var. Aprelin 1-də türk polisinin həyata keçirdiyi əməliyyatda 5 İŞİD terrorçusu saxlanılmışdı ki, onlardan biri də Azərbaycan əsilli Rusiya vətəndaşı idi.**



# Sələfilərin Bakıdakı lideri İŞİD-ə dəstək ittihamlarından danışdı

Ümumiyyətlə, son illərdə azərbaycanlıların İŞİD, PKK kimi terror qruplarına qoşulmaları halları artıb. Zaman-zaman ictimaiyyət arasında bununla bağlı narahatlıq doğuran fikirlər səsləndirilib.

Cərəyan edən hadisələrin fonunda daim terror qruplaşmalarına meyl edən şəxsləri Azərbaycanda təşkil edən qüvvələrin olması barədə cəmiyyətdə təzadlı fikirlər olub. İŞİD-ə qoşulanların sırasında vəhhabi təriqətinə məxsus şəxslərin çoxluğu barədə iddialar var. Hətta belə şəxslərin ölkədən çıxışlarını təşkil etməklə bağlı sələfilərin liderləri Hacı Qamət və Əlixan Musayevin adı hallanır. Son həbslərdən sonra da onların isimləri yenidən gündəm olub. Doğrudur, hər iki şəxs zaman-zaman İŞİD-i, eləcə də terror qruplaşmasına qoşulanları pisləyən fikirlər səsləndiriblər. Amma azərbaycanlı terrorçular içərisində sələfilərin çoxluq təşkil etmələri ilə bağlı iddialar onlara qarşı ittihamların artmasına səbəb olub.

Hacı Qamətdən barəsindəki iddialara cavab almağa çalışsaq da, bu mümkün olmadı. Lakin Əlixan Musayevlə danışmaq imkanımız oldu.

**Sələfilərin lideri səslənən iddiaları özlərinə qarşı böhtan adlandırdı:** "Sizin qəzetə və başqa saytlara verdiyim açıqlamalarda demişəm ki, ilk günlərdən İŞİD barədə qəti mövqeyim olub. Bunun səs yazısı 35 mindən çox dindar tərəfindən dinlənilib. Qətiyyətlə İŞİD terrorunu pisləmişəm. Orada xüsusilə vurğulamışam ki, yer üzündə İŞİD-i dəstəkləyən alim yoxdur. Ona görə də biz bunun qətiyyətlə əleyhinəyik. Onlara qoşulan azərbaycanlılardan bizim heç bir xəbərimiz yoxdur. Onları, ümumiyyətlə, tanımırıq. Bu cür halların getdikcə artmasına səbəb savadsızlıqdır. Əgər insanlar öz dinlərini yaxşı bilsələr, bu oyunlara düşməzlər. İŞİD bir oyundur. Bunu bilməyən yoxdur. Azərbaycandan İŞİD-ə qoşu-



**Əlixan Musayev:** "O şəxs həqiqi sələfi sayılmır"

lanların kimlər tərəfindən təşkil olunması barədə fikir bildirmək çətindir. Çünki bu barədə tam bilgim yoxdur. Bildiyimiz yalnız odur ki, gedənlər özbaşına gedirlər, yəni kimlərləsə məsləhətləşmirlər. Hətta bəzən gedənlərin valideynləri, yaxınları yanımıza gəlirlər. Cavabımız o olur ki, biz bu barədə nəsə edə bilmərik. Əgər bu şəxslər bizimlə məsləhətləşsəydilər, onlara Allahın və Peyğəmbərin tapşırıqlarını başa salardıq. Əsl cihad öncəliklə Xəlifənin, sonra ata-ananın halallığı, ən əsas da güc-qüvvət nəticəsində olur. Cihadın o qədər şərtləri var ki... Kor-koranə hansısa terror qüvvələrinə qoşulub, özünü təhlükəyə atmağın heç bir adı yoxdur. İŞİD apardığı müharibəni müqəddəs hesab edir. Elə düşünürlər ki, döyüşdə vuruşub şəhid olacaqlarsa, cənnətlikdirlər. Amma bilirik ki, cihadın olması üçün böyük alimlərin fətvası olmalıdır. Yer üzündə də elə alim yoxdur ki, İŞİD-in cihad olduğunu desin".

**Sələfilərin lideri təmsilçisi olduğu təriqət üzvlərinin İŞİD-ə daha çox qoşulmalarına da münasibət bildirdi:** "Əgər istənilən şəxs həqiqətən sələfidirsə, heç vaxt mənim kimi İŞİD-ə qoşulmaz. Tarixi oxusanız, görərsiniz ki, heç bir sələfi tarix boyu dövlətə qarşı çıxmayıb, belə terror qruplaşmalarına qoşulmayıb.



**İlham İsmayıl:** "Bu işi sələfi liderlərinin təşkil etdiyini demək..."

Belə bir fakt yoxdur. Həqiqi sələfi yerində oturub, səbirlə proseslərin hara qədər gedəcəyini gözləyib. Ola bilər ki, İŞİD-ə qoşulan şəxs özünü sələfi adlandırsın, amma o şəxs həqiqi sələfi sayılmır. O, artıq radikal, yolundan çıxmış müsəlman sayılır".

**Sabiq MTN zabiti İlham İsmayıl dünyanın hər yerindən İŞİD-ə qoşulanların olduğunu söylədi:** "Bunun ideoloji və maliyyə tərəfləri var. Bəzən insanlar bir parça çörək tapmaq üçün istənilən yola gedirlər. Son iki ilə diqqət yetirsək, Azərbaycandan getdikcə İŞİD-ə qoşulanların sayı azalır. Əvvəllər burada mərkəzləşmiş şəkildə insanları göndərirdilər. Amma indi aparılan təbliğat öz işini görür. Burada sərhəd boşluğunu önə çəkmək olmaz. Çünki istənilən şəxs hazırda asanlıqla Türkiyəyə gedə bilər. İŞİD-ə isə daha çox Türkiyədən keçib qoşulurlar. Belə şəxslərə başa salmaq lazımdır ki, bu terror qruplaşmasına qoşulmaq cinayətdir. Amma bununla tamamən terror qruplaşmasına qoşulanların kökünün kəsiləcəyini düşünsək, yanılarıq. Daim belə vətəndaşlar olacaq. Maarifləndirmə işinin zəif aparıldığını danmaq olmaz. Həmin şəxsləri buradan təşkil edən qüvvələr olmasa, onlar çətin gedərlər. Bunlara maliyyə ayıran dövlətlər və qüvvələrin olmasının da bu işdə böyük rolu var. Konkret bu işi sələfi liderlərinin təşkil etdiyini demək düzgün olmaz. Əgər belə olsaydı, indi hüquq-mühafizə orqanlarımız həmin şəxsləri həbs etmişdilər. Onu da unutmaq olmaz ki, bu iş kifayət qədər məxfi aparılır. Uzun müddət elə şirnikləşdirici təkliflər olunur ki, sonda insanlar İŞİD-ə meyl edirlər. Maliyyə və ideoloji cəhətdən bu belədir".

❑ Cavanşir ABBASLI



## Sərkisyan amerikalı muzdluları Qarabağa gətirir

**Amerikada yaşayan erməni muzdlular döyüşmək üçün Qarabağa gəlir.**

Publika.az xəbər verir ki, bu fakt "İntellinews" saytının Azərbaycanın işğal olunmuş ərazilərindən hazırladığı reportajda ortaya çıxıb. Reportajda bildirilir ki, aprel döyüşlərindən sonra xaricdən bir çox erməni bölgəyə gəlib: "Məsələn, Arutun Aqasarkiyan erməni mənşəli ABŞ vətəndaşıdır. O, Corciya ştatında yaşayır".

Məqalədə vurğulanır ki, Qarabağa gələnlər arasında Amerika erməni legionunun (American Armenain Legion) üzvləri də var.

Qeyd edək ki, bir müddət öncə Türkiyə mediası ABŞ-dakı erməni legionu haqda informasiyalar yaymışdı. "Sabah" qəzeti Türkiyə kəşfiyyatındakı mənbəyə istinadən xəbər verirdi ki, MİT erməni legionunun təlimlərini əks etdirən fotogörüntülər əldə edib. Onlar Kaliforniya (bu ştat ABŞ-da ermənilərin ən çox yaşadığı yerdir) yaxınlığında yaradılan xüsusi düşərgədə təlim keçirlər.

**Son bir ayda NATO-nun postsovet ölkələrindəki hərəkətliliyi Rusiyada aşkar şəkildə qıcıq yaratmaqdadır. ABŞ-ın tank bölüyünün və mütəxəssislərinin Moldova və Gürcüstanda hərbi təlimlərə gəlməsi, həmçinin Rusiya təhdidinin qarşısında NATO gəmilərinin Baltikyanı ölkələrin sahillərinə yan alması, hətta NATO-Rusiya müharibəsinin mümkünlüyü barədə ehtimalları gücləndirib.**



# Gürcüstan NATO-ya üzv olmaq ərəfəsində, bəs Azərbaycan...

## **Hərbi ekspert:** "Nə Rusiyadan, nə də digər ölkələrdən çəkinmək lazım deyil"

Bu arada Gürcüstanın NATO-ya üzvlüklə bağlı yenidən alyansda müzakirələrin aparılacağı barədə xəbər yayılıb. Türkiyənin XİN başçısı Mövlud Çavuşoğlunun dediyinə görə, Gürcüstanın NATO-ya üzv qəbul olunması ilə bağlı müraciət bu ay Şimali Atlantika Alyansı ölkələrinin XİN başçılarının toplantısında müzakirə ediləcək. Elə Gürcüstanda keçirilən hərbi təlimlərin "Layiqli tərəfdaş - 2016" adı altında keçirilməsi də NATO-nun Tiflisə münasibətindən xəbər verir.

Paralel olaraq Azərbaycanın NATO ilə əlaqələrə diqqət yetirməsi də maraq doğurur. Qeyd edək ki, bir neçə gün öncə müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Belçika Krallığının Brüssel şəhərində yerləşən NATO-nun Mənzil Qərargahında NATO-nun Hərbi Komitəsinin "Qətiyyətli Dəstək" və "Uyarlılıq Platforması" formatlarında Baş Qərargah rəisləri səviyyəsində keçirilən görüşlərdə iştirak edib.

Ukrayna və Gürcüstandakı gərginliklərin təməlində sözsüz ki, NATO-ya üzvlük məsələsi dayanıb. Bu mənada Rusiya təhdidlərinin olması şəraitində Azərbaycanın NATO ilə əlaqələri riskli hesab olunur. **Hərbi ekspert Üzeyir Cəfərov** isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, kimin necə münasibət bəsləməsindən asılı olmayaraq, Azərbaycan NATO ilə əməkdaşlığı davam etdirməli və bu hərbi-siyasi təşkilatın keçirdiyi tədbirlərin ən aktiv üzvlərindən biri olmalıdır: "Doğrudur, bu gün Şimali Alyansa münasibət birmənalı olmasa da, şəxsi düşüncəmə görə, dünyada stabilliyi və təhlükəsizliyi qorumağa qadir olan yeganə güc mərkəzi məhz NATO-nu hesab etmək olar. Bu gün bu təşkilatın sıraları genişlənməkdə davam edir. Dünənə kimi xeyli problemlərlə, müharibələrlə üz-üzə qalan və sonda öz dövlət müstəqilliyini elan etmiş, təhlükəsizliyinin qarantı kimi məhz NATO-ya etibar edən Monteneqronun da bu təşkilata üzv qəbul olunması çox ciddi hadisə sayıla bilər. Məsələyə qısqanclıqla yanaşan və bunu nədənsə özünə təhdid kimi qəbul edən Rusiya və bəzi maraqlı dövlətlər nə qədər çalışsalar da, bu, artıq baş tutmuş hadisə sayılır və heç kim bu ölkənin daxili işlərinə qarışmaq səlahiyyətində ola bilməz. Azərbaycan da Şimali Alyansın demək olar ki, əksər tədbirlərində fəal iştirak edir və sözsüz ki, bu yaxın ətrafımızda olan cənub və şimal qonşularımızda narahatçılıq yaradır. Lakin unutmaq lazım deyil ki, hər bir dövlət öz milli maraqlarından çıxış edərək müəyyən addımlar atır".

**Ü.Cəfərov bundan sonra da ölkəmizin NATO ilə əməkdaşlığının davam etdirilməsinin tam tərəfdarıdır və bunun bizə ancaq faydalı olacağını düşünür:** "Heç nədən və heç kimdən çəkinmək lazım deyil. Elə adlarını qeyd etdiyim şimal və cənub qonşularımızın da bəzi addımları var ki, onlar Azərbaycana hardasa təhdid və hətta deyərdim ki, təhlükə də yaradır. Amma biz bu məsələlərə sakit tərzdə yanaşır və başa düşürük ki, istər Rusiya, istərsə də İran öz milli və dövlət maraqlarından çıxış edərək həm Ermənistanla, həm də digər ölkələrlə əməkdaşlıq edir, hərbi-siyasi, texniki əməkdaşlıqlarını genişləndirirlər. Olsun. Biz də bir region dövləti olaraq nəyi və necə etməli olduğumuzu özümüz qərarlaşdırmaqda sərbəstik".

**Hərbi ekspert Gürcüstanla bağlı baş verənləri təqdir etdi:** "Rəsmi Tiflisin qərarları sevindiricidir və hesab edirəm ki, bu ölkə də NATO ilə yaxın perspektivdə bütün məsələləri müsbət həll edəcək və öz qarşısına qoyduğu məqsədlərə çatacaq - baxmayaraq ki, həmən Rusiya var gücü ilə gürcüstanlı dostlarımızın da yolunda süni əngəllər yaratmağa cəhdlər etdi. Bir sözlə, nə Rusiyadan, nə də digər ölkələrdən çəkinmək lazım deyil. Dünyada baş verən proseslər hər bir ölkəni hadisələrə uyğun adekvat qərarlar qəbul etməyə məcbur edir. Həm də unutmaq lazım deyil ki, artıq 21-ci əsrdə, qloballaşan və mürəkkəbləşən bir dövrdə yaşayırıq. Buna uyğun siyasət yeridib öz xalqının gələcəyini düşünən ölkələr və siyasi rəhbərlər heç vaxt uduzmurlar".

❑ **Cavid TURAN**

# Bu gün rus qoşunlarının Azərbaycandan çıxarıldığı gündür

## Bu tarixi bayram kimi qeyd etmək lazımdır, iqtidarlı-müxalifətli siyasi düşərgə susur...



**1993-cü il 25 may- rus qoşunlarının Azərbaycandan çıxarıldığı gündür. SSRİ dağılandan sonra tərkibindəki ölkələrdən Azərbaycan ilk olaraq rus qoşununu ölkədən çıxarıb. Həmin vaxt Rusiya Azərbaycan rəhbərliyi ilə qoşununun burada qalmasını razılaşdıran müqavilə imzalamağa çalışsa da, ölkə rəhbərliyi buna müqavimət göstərib. Bildirilir ki, tərkibində 4 motoatıcı, bir hava-desant diviziyasının və 5 hərbi aerodromu olan 4-cü ordunun Azərbaycanı tərk edəcəyinə inam o zaman güclü deyildi. Ancaq Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətə gəlişindən sonra buna inananların sayı artmağa başlayıb.**

Bugünlərdə ölkədəki siyasi partiyalardan biri olan KXCP rus qoşunlarının Azərbaycandan çıxarıldığı 25 may tarixinin rəsmi şəkildə, bayram kimi qeyd olunması təklifi ilə çıxış edib. Qeyd edək ki, 24 il sonra yenə rus qoşunlarının sülhməramlı adı ilə Qarabağa yerləşdirilməsi təhlükəsi var. Bildirilir ki, məhz bu məqamda 25 mayın qeyd olunması ilə dünyaya mühüm mesaj verilə bilər.

KXCP-dən musavat.com-a bildirilib ki, partiyanın bu təklifinə hakimiyyətdən hər hansı reaksiya gəlməyib.

**KXCP sədrinin müavini Xəzər Teyyublu musavat.com-a bildirib ki, 25 may tarixinin dövlət səviyyəsində qeyd olunması vacibdir:** "Azərbaycan postsovet məkanında ilk respublika oldu ki, ölkədə demokratiya qalib gəldi və 1991-ci ildə Azərbaycanın müstəqillik aktı qəbul olundu. Qurulmuş demokratik cümhuriyyətin işğalından 70 il sonra sovetlər imperiyası dağıldı, cümhuriyyət yenidən bərpa olundu. Bu proseslərdə ölkədə demokratik bir hakimiyyət quruldu və Əbülfəz Elçibəy hakimiyyət başına gəldi. O dövrdə bunlar Azərbaycan xalqının uğuru idi və ölkədə keçirilən demokratik islahatlardan biri də rus, sovet qoşunlarının ölkədən çıxarılması idi. Çünki o yerdə ki, başqa bir dövlətin qoşunu var, bu, ilhaq sayılır, müstəmləkəçilik sayılır. 1920-ci ildə Azərbaycana girən rus qoşunlarını 1993-cü ildə Əbülfəz Elçibəy çıxardı. Azərbaycan həm də tam müstəqil o vaxt olacaq ki, onun təkcə şimalında yox, cənubunda da 25 miyonluq xalqın müstəqilliyi olacaq. Tamamilə 50 milyonluq Azərbaycan qurulandan sonra tam müstəqil dövlətimiz olacaq. Rusiya bu vaxta qədər nə olur-olsun Qarabağ problemini həll etməyə imkan vermir. Kreml Azərbaycana yenə qoşununu salmaq istəyir. Rusiya istəyir ki, Qafqazda Azərbaycan xalqının müstəmləkə siyasətini davam etdirsinlər. Rus qoşunlarının ölkəmizdən çıxarılmasını bayram kimi qeyd etmək bir növ həm də dünyaya bir mesajdır ki, Azərbaycan müstəqil dövlətdir, heç bir istilaya özünü qurban verməyəcək. Gələcəkdə dünya dövlətlərinin sırasında özünü götmək istəyir. Azərbaycanın nicat yolu dövlət müstəqilliyini qoruyub saxlamaqla dünyanın təkkib hissəsinə çevrilməkdir. Biz əhəmiyyətli günün dövlət səviyyəsində qeyd olunmasını istəyirik. Həm də istəyirik ki, bu günün şərəfinə bir abidə ucaldılsın. Tarixi gün kimi qeyd olunsun 25 may, dövlət bayramı kimi görə bilək".

**Maraqlıdır ki, KXCP-dən başqa digər müxalifət partiyaları 25 mayla bağlı hər hansı tədbir planlaşdırmayıblar. Onlar 28 mayda keçiriləcək Respublika Gününə hazırlaşırlar. Müsavat Partiyasının başqan müavini Elman Fəttah bildirib ki, partiya bütün hazırlıqlarını 28 Maya- Respublika Gününə həsr edib:** "Bu səbəbdən 25 mayla bağlı hər hansı tədbir gözlənilmir. Mayın 29-də, saat 12-də Novxanıda bayram mitinqi şəklində Azərbaycanın Respublika, müstəqşdlik gününü qeyd edəcəyik. Ancaq Müsavat Partiyası 25 mayın 25 illiyinə hazırlaşmağı planlaşdırır. İl boyu davam edəcək tədbirlərimiz olacaq".

**Ümid Partiyası sədrinin müavini Taleh Əliyev isə qeyd edib ki, partiyada 25 mayla bağlı xüsusi tədbir təşkil olunmayacaq:** "Amma bu tarix yaddan çıxmayıb. Bu, Azərbaycandan sonuncu işğalçının çıxdığı tarixdir. Ancaq 28 mayda cümhuriyyətin yüz illiyi gəlir, partiya olaraq həmin günə hazırlaşırıq. Partiyada dəyirmi masa keçirilməsi planlaşdırılıb. Tədbirdə 25 may tarixi də xatırlanacaq".

❑ **Röya RƏFİYEVA**

# Eks-deputatın qardaşı oğlunun həbsinə hazırlıq gedir

## Sarvan Qəribov Cinayət Məcəlləsinin 6 maddəsi ilə ittiham olunur


Fərhad Qəribov

**Baş prokurorun göstərişinə əsasən Kürdəmir Rayon Prokurorluğunda eks-deputat Fərhad Qəribovun qardaşı oğlu Sarvan Qəribov barəsində araşdırma aparılır. S.Qəribov Cinayət Məcəlləsinin 6 maddəsi ilə başlanmış cinayət işi üzrə əsas təqsirləndirilən şəxsdir. Bu haqda redaksiyamıza daxil olan məlumatda deyilir ki, hazırda Kürdəmir Rayon Prokurorluğunda S.Qəribovun rəhbərlərindən olduğu "Ekspress-Trans" MMC-də baş verən qanunsuzluqlardan dolayı CM-in 216-1 - əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi, 178-ci - dələduzluq, 179-cu - mənimsəmə 297-ci - yalan ifadə vermə, 308-ci - vəzifə səlahiyyətlərindən sui-istifadə və 309-cu - vəzifə səlahiyyətlərini aşma maddələri ilə cinayət işi başlanıb.**

Bundan başqa, S.Qəribov külli miqdarda vergidən yayındığı üçün onun ölkədən çıxışı Vergilər Nazirliyi tərəfindən məhdudlaşdırılıb. Ölkədən çıxmasının qarşısının alınması üçün Dövlət Miqrasiya və Dövlət Sərhəd Xidmətləri məlumatlandırılıblar.

"Ekspress-Trans" MMC eks-deputat Fərhad Qəribovun oğlu Zöhrab Qəribovundur. Şirkətlə bağlı araşdırmalar bir qrup fəhlənin müraciəti əsasında başlanıb. F.Qəribov deputat olduğu müddətdə oğlu Zöhrab Qəribov "İpək Yolu"nun bir hissəsinin çəkilişində özünün "Ekspress-Trans" MMC şirkəti vasitəsilə iştirak edib. Yol çəkilişində 11 fəhləni işlədib, amma pulunu verməyib. Deyib ki, "pulu vermirəm, gedin, kimə istəyirsiz deyin". Həmin şəxslər də deputat oğlunun sözünü yerə salmayıblar. 2012-ci ildən bu günə qədər halal, əllərinin zəhməti, alın təri ilə qazandıqları pulların onlara verilməsi üçün dövlət qurumlarına yorulmadan şikayət edirlər. Şikayətlər araşdırılarkən məlum olub ki, "Ekspress-Trans" MMC 2014-cü ilə qədər dövlət qurumlarına fəaliyyətsiz olması haqda yalan məlumatlar verməklə külli miqdarda vergini ödəməyib. Buna görə də deputatın qardaşı oğlu Sarvan Qəribovu saxlayıblar, rəhbəri olduğu MMC 120 min manat cərimə edilib, 70 min manatı ödətdiriblər. S.Qəribov yerdə qalan 50 min manatı ödəmək öhdəliyi götürəndən sonra azad olunub. Bir müddət əvvəl isə Vergilər Nazirliyinin 9 saylı Ərazi Vergi İdarəsi Kürdəmir Rayon Məhkəməsinə müraciət edərək Sarvan Qəribovun ölkədən qaçmaq ehtimalının böyük olduğunu nəzərə almaqla onun ölkədən çıxışının yasaqlanması haqda qərar verilməsini xahiş edib. Məhkəmə Sarvan Qəribovun ölkədən çıxışını yasaqlayıb. Bundan sonra Sarvan Qəribov 50 min manatın 24 minini ödəyib. 26 min manat borcu isə ödənməmiş qalıb. Hazırda bu rəqəm də dəbbə pulu ilə birgə artıq 36 min 871 manat 98 qəpik olub. Hər gün bu məbləğin üstünə 0.1 faiz dəbbə pulu gəlir.

❑ E.HÜSEYNOV

# Həbsdəki MTN generalından yeni sensasion iddia

## Elçın Quliyev: "Mən məhkəməyə çıxdığım gün özümü asacam"


Elçın Quliyev

**Eldar Mahmudovun "vurulmasından" sonra onun Milli Təhlükəsizlik Nazirliyində yaratdığı cinayətkar dəstənin üzvlərinin istintaqı davam edir. Gununsesi.info-un əldə etdiyi məlumata görə, həbs olunan MTN rəhbərliyi arasında olan şəxslərdən biri indiyədək istintaqa ifadə verməkdən imtina edib. Bu, Anti-Terror Mərkəzinin sabiq rəisi general Elçin Quliyevdir. Saytı bilgiləndirən mənbənin sözlərinə görə, istintaqa ifadə verməkdən boyun qaçıran Elçin Quliyev hətta prokurorluğu da şantaj edib. Belə ki, məhkəməyə çıxmayacağını bildirən general özünü öldürəcəyini bəyan edir: "Mən məhkəməyə çıxdığım gün özümü asacam. Məni azad etməlidirlər". Elçin Quliyev bu tələbi irəli sürməklə azadlığa buraxılmasını tələb edib. Xatırladaq ki, bir neçə ay əvvəl Bakı İstintaq Təcridxanasında Elçin Quliyevin müavini İlqar Əliyev özünü asıb. Həmin dövrdə E.Əliyev vəzifədən azad edilsə də, həbs olunmamışdı. İ.Əliyevin müəmmalı ölümündən sonra E.Quliyev həbsə alındı.**

Qeyd edək ki, E.Quliyev E.Mahmudov vəzifədən çıxarılandan bir müddət sonra tutduğu vəzifədən azad olunaraq MTN-in Heydər Əliyev adına Akademiyasının kafedra rəisi təyin edilmişdi. Həbsdəki müavinin qəfil ölümündən sonra onun özünü istintaqa çağırıb həbs etdilər. E.Quliyev Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində "MTN işi" üzrə başlanmış cinayət işi üzrə əsas fiqurantlardan biridir. Ona Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə ittiham elan olunub. Ötən il dekabrın 25-də barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Sonradan bu müddət bir daha 4 aylıq uzadılıb.

❑ E.HÜSEYNOV

# Şərikinin qətlini sifariş verən Ali Məhkəməyə müraciət göndərdi

## Hümbət Məmmədovun müraciəti Əflatun Piriyevin yaxınlarında kəskin etiraz doğurdu

**Şəriki Əflatun Piriyevin qətlini sifariş verməkdə və dələduzluqda ittiham edilərək ömürlük azadlıqdan məhrum edilmiş Hümbət Məmmədov gizlicə Ali Məhkəməyə müraciət edib. O, Bakı Apelyasiya Məhkəməsinin barəsindəki qərarının dəyişdirilməsini istəyir.**

Mərhum Ə.Piriyevin ailə üzvləri onlara məlumat verilmədən məhkəmənin keçirilməsinə kəskin etirazlarını bildiriblər. Mərhumun qardaşı Ərəstun Piriyev "Yeni Müsavat" əməkdaşına deyib ki, H.Məmmədovun əli onun qardaşının qanına batıb: "Ali Məhkəmənin sədri Ramiz Rzayevə müraciət edirəm. Bizim iştirakımız olmadan Hümbət Məmmədovun şikayətinə baxılmasın. Bu adam qardaşımın qətlini sifariş verib. İndi də etdiyi cinayətin cəzasını çəkir. Bizim iştirakımız olmadan məhkəmə onun müraciətinə baxmasın. Bizə vəkil tutub şikayətə baxılarkən prosesdə iştirak etməyə şərait yaradılsın".

**Ərəstun Piriyev bildirib ki, aşağı məhkəmə instansiyalarında onların vəkili Aslan İsmayılov olub və hazırda da onları təmsil edir:** "Lakin Aslan İsmayılovu Vəkillər Kollegiyasından çıxarıblar. Ona görə də bizə digər vəkillə müqavilə bağlamağa və şikayətə baxılarkən prosesdə iştirakımıza şərait yaradılmalıdır. Qardaşımın qanına əl batırmış şəxsin cinayətinə kimsə şərik olmasın. Biz Hümbət Məmmədovun şikayətinə baxılacağı haqda təsadüfən xəbər tutmuşuq. Halbuki bu xəbəri bizə Ali Məhkəmədən verməli idilər".



Bu müraciət H.Məmmədovun Ali Məhkəməyə ilk müraciəti deyil. O, ötən ilin fevralında Ali Məhkəməyə müraciət etmişdi. Müraciət əsasında 2015-ci il martın 3-nə məhkəmə baxışı təyin olunmuşdu. Lakin məsələnin ictimailəşməsi H.Məmmədovun planlarını alt-üst etdi. Buna görə də son anda müraciətinə baxılmasından imtina etdi. Ötən müddət ərzində isə H.Məmmədov Qobustan Qapalı Həbsxanasında ömürlük cəzasını çəkirdi. H.Məmmədovun gizli şəkildə məhkəməyə müraciət etməsinin səbəbi onun törətdiyi əməldə gizlənir.

Yada salaq ki, 2011-ci il, iyulun 11-də, saat 13 radələrində paytaxtın Nərimanov rayonu ərazisində yerləşən "Azər-Ross" mənzil-tikinti kooperativində qurumun təsisçisi Əflatun Piriyevə və baş mühasib Əmiraslan Əhmədova odlu silahdan atəş açılır. Hadisə yerinə ilk çatan Hümbət Məmmədov olur və şərikini maşına qoyaraq xəstəxanaya çatdırmaq üçün bütün şəhəri gəzdirir. Qanı axan Ə.Piriyev H.Məmmədovun maşınındaca keçinir. Sonradan heç nə olmamış kimi yas məclisində təşkilatçılıq edən H.Məmmədovu telefon danışıqları ələ verir. Onun sifarişini yerinə yetirmiş qatil Vüsal Qurbanov H.Məmmədovdan törətdiyi əmələ görə pulunu istəyib. Bu əsnada qatillə sifarişçi arasındakı telefon danışıqları hüquq-mühafizə orqanlarının əlinə keçib. İstintaqa cəlb edilən H.Məmmədov vəziyyətdən çıxmaq üçün min bir bəhanə düşünüb. Lakin daşdan keçən sübut - telefon danışıqlarının mətnləri ilə tanış olanda sifarişçi olduğunu boynuna alıb. Sonradan onun digər bir iyrənc cinayəti də üzə çıxıb. Məlum olub ki, H.Məmmədovun əmisinin 16 yaşlı nəvəsi ilə intim münasibəti olub və ondan şikayət edilib...

İstintaq araşdırması zamanı onun dələduzluq faktları da üzə çıxıb. Məlum olub ki, Hümbət Məmmədov şərikini tamah məqsədilə öldürtdürüb ki, ona olan borcunu verməsin. "Azər-Ross" MTK-nın baş ofisində törədilən dəhşətli qətl hadisəsində və dələduzluqda ittiham olunan Hümbət Məmmədov, Vüsal Qurbanov, Tofiq Bəkirov, Fərman Hacıyev, Sahil Şamilov və Şamil Şamilov məhkəmə qarşısına çıxarılıblar.

Bakı Ağır Cinayətlər Məhkəməsi Hümbət Məmmədov və Fərman Hacıyevi sifarişli qətlə görə ömürlük, digərlərini isə müxtəlif müddətlərə azadlıqdan məhrum edib. İş üzrə 24 nəfər zərərçəkənə 1 milyon 777 min manat ziyan vurulub. Belə ki, H.Məmmədov onlardan mənzil verəcəyi adı ilə qeyd olunan məbləği alıb və heç birinə mənzil verilməyib.

❑ E.MƏMMƏDƏLİYEV






İyunun 17-dən 19-dək Bakıda ilk dəfə təşkil olunan "Formula-1" üzrə Avropa Qran-Prisinə cəmi 3 həftə qalır. Bu ərəfədə Bakı Şəhər Halqasının keçdiyi küçələrdə yarışa son hazırlıq işləri aparılır.

# "Formula 1"ə 24 gün qaldı

## Avropa Qran-Prisinə bileti olmayanlar üçün Milli Park bağlı olacaq

Musavat.com xəbər verir ki, artıq Bakı Şəhər Halqasında asfalt işləri başa çatıb. Pit binası 90 faiz yekunlaşıb. Hazırda oturacaq tribunaları və təhlükəsizlik baryerləri quraşdırılır ki, bunların da son tamamlanma işləri gedir. Artıq 3 tribuna hazırdır. Bundan əlavə, 6 tribuna da quraşdırılacaq.

Bütün bu işlərlə yanaşı, "Formula-1"i simvolizə edən atributların paytaxtın müxtəlif yerlərində quraşdırılması davam etdirilir. "Formula-1" yarış maşınının maketi olan belə bir simvol Bakının Xətai rayonundakı Xətai parkında quraşdırılıb.

Sürətli avtomobillərin keçəcəyi küçələrdəki binalar rənglənir, eyvanlar səliqəyə salınır. Media nümayəndələrinin və komandaların yerləşəcəyi çadırlar hazırdır. Xüsusi olaraq bu tədbir üçün gətirilən çadır və otaqların quraşdırılması bitmək üzrədir.

Bakı Şəhər Halqası boyunca gecə-gündüz iş aparılır. Vətəndaşların xüsusilə sutkanın qaranlıq vaxtlarında maşınlarını yol boyunca park etmələri isə görülən işlərə maneçilik törədir. Ona görə də təşkilatçılar vətəndaşlardan xahiş edir ki, yarış həftəsinə qədər Azadlıq meydanının altında yerləşən avtomobil dayanacağından istifadə etsinlər.

**Bakıda baş tutacaq "Formula-1" yarışmasına qatılacaq bütün pilotlar kifayət qədər tanınmış, peşəkar idmançılardır. Bunu "Baku City Circuit" şirkətinin Marketinq və Kommunikasiya departamentinin rəhbəri Nigar Arpadarai deyib. Qurum rəsmisi bildirib ki, dünya miqyasında tanınmış ralli ustalarının Bakıda keçiriləcək "Formula-1" yarışmasına qatılması Azərbaycan üçün çox əhəmiyyətlidir:** "Bakıda keçiriləcək "Formula-1" Avropa Qran Prisinə Fernando Alonso, Niko Rozvelt, Luis Hamilton kimi peşəkar və tanınmış ralli ustaları qatılacaqlar. Bu pilotlar dünyada kifayət qədər tanınmış, məşhur və sevilən idmançılar sayılır. Onların Bakıda olması bizim üçün çox böyük fəxrdir".

**Nigar Arpadarai Formula yarışmasında Bakıda dünya ulduzlarının konsertlə çıxış edəcəyini söyləyib:** "Enriki İqlesias, Farel Viliams, Kris Braun kimi məşhur dünya ulduzları "Fomrula-1" yarışmasını izləmək üçün Bakıya gələcəklər. Onlar həm də yarış günləri ərzində konsert proqramları ilə çıxış edəcəklər. "Formula-1" Avropa Qran Prisini izləmək üçün Bakıya gələcək turistlərin təxminən 12-15 min arasında olacağı gözlənilir".



**Avropa Qran-Prisinə bileti olmayanlar üçün Milli Park bağlı olacaq. N.Arpadarai bildirib ki, Dənizkənarı Bulvarda "Azneft" meydanından dəniz vağzalına qədər olan hissədə "Formula-1" şəhərciyi olacaq, bileti olmayan isə əraziyə buraxılmayacaq. Bilet almayanlar "Formula-1" şəhərciyində xüsusi olaraq qurulmuş əsas səhnədə tanınmış dünya ulduzları Kris Braun, Enrike İqlesias, Farrell Uilyamsın çıxışını izləyə bilməyəcəklər:** "Konsertə giriş ödənişsizdir. Proqramda yalnız Avropa Qran Prisinə bilet alanlar iştirak edə biləcəklər".

**Onun sözlərinə görə, bilet alanlar yarışı izləmək, müğənnilərin konsertində iştirak etmək və məşhurlarla avtoqraf sessiyasına qatılmaq şansı əldə edəcəklər:** "Üstəlik, həmin biletlərin sahibləri GP 2 yarışlarına da tamaşa edəcəklər. Məqsədimiz Avropa Qran Prisi zamanı tam əyləncə proqramı tətbiq etməkdir".

2016-cı il "Formula 1" Avropa Qran-Prisi ilə əlaqədar tikilən obyektlər müvəqqətidir. "Formula-1" Avropa Qran-Prisi üçün Bakının Azadlıq meydanında tikilən obyektlər söküləcək və gələn il keçiriləcək yarışa qədər anbarda saxlanacaq, 2017-ci ilin yarışından öncə isə yenidən qurulacaq. Qeyd edək ki, "Formula-1" Avropa Qran-Prisinə bu il iyunun 19-da Bakıda yerli vaxtla saat 18.00-da start veriləcək.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

# Qadına əllə salam caiz deyil, amma...

## Kənan Rövşənoğlu: "Bir kişinin qadınla əllə salamlaşması ümumi olaraq haramdır"



**Türkiyənin sabiq baş naziri Əhməd Davudoğlunun həyat yoldaşı Sarə Davudoğlu prezident Ərdoğanın nazir damadı (kürəkən) Berat Albayraka əl uzadıb salamlaşmaq istəyib. Lakin xanımın əli havada qalıb. Gənc nazir sırf dini inancı üzündən Sarə Davudoğlu ilə əl tutuşmayıb, guya ki, bu, müsəlmanlığa ziddir, naməhrəm qadınla fiziki təmas ola bilməz.**



Maraqlıdır, doğrudanmı İslamda qadınla əl sıxışıb salamlaşmaq haramdır?

İslamda "salam" termini "səlimə" kökündən olub, maddi və mənəvi çətinliklərdən xilas olmaq, sülh və sağlamlığa qovuşmaq arzusudur. Ümumilikdə salamlaşma yalnız İslam aləmində deyil, bütün xalqlarda olub. Lakin bu hörmət ifadəsi müxtəlifliyi ilə fərqlənib: təzim, diz üstə çökmək, əl ilə salamlaşma, papaq çıxartma, əllərlə müxtəlif hərəkətlər və sairə. Azərbaycanda isə insanlar salamlaşarkən daha çox əl sıxırlar. Gün ərzində dəfələrlə həyata keçirdiyimiz əlsıxma hərəkəti "salam" ifadəsi olmadan belə, o mənanı ifa edir. Əlsıxma prosesinin də tarixinə nəzər yetirsək əslində bu prosesin döyüş tarixi ilə bağlı olduğunu görərik. Belə ki, qədimdə kişilər hər zaman üstlərində bir silah gəzdirirdilər. Həmin silah da mütləq sağ əldə olmalı idi. Xoş məqsədlə rastlaşan kişilər əldə silah olmadığını bildirmək üçün boş sağ əllərini bir-birinə təqdim edib sıxırdılar. Sonradan bu vərdiş görüşmək nümunəsinə çevrildi. İndi isə yalnız kişilər bir-biri ilə əllə salamlaşmır, həm də qadınlara da arada əllə salam verirlər. Bunun isə səbəbi İslamda naməhrəm kişinin qadınla əllə görüşməsinin caiz, yəni haram sayılmasıdır. Bir çox İslam alimləri müasir dövrün tələblərinə uyğun olaraq qadın və kişinin əllə salamlaşmasında qəbahət görmədiklərini desələr də, əksəriyyət bu fikirlə razılaşmır.

**Dini ekspert Kənan Rövşənoğlu əllə salamlaşmanın haram olduğunu dedi:** "Bir kişinin qadınla əllə salamlaşması ümumi olaraq haramdır. Yəni bir kişinin və ya qadının ona məhrəm olmayan, yəni yaxın qohumluq və doğmalıq əlaqəsi olmayan adamla əl tutması günahdır. Amma son illərdə bəzi İslam alimləri müasir şərtləri nəzərə alaraq əllə salamlaşmaya icazə verirlər. Bu səbəbdən də Türkiyədə dindar kimlikli adamlar da əl tuturlar".

Salamlaşma bütün dünyada fərqlidir. Məsələn, çinlilər baş əyir, ancaq onlar əllərini bədən boyunca uzadırlar. Hindistanda salamlaşma qaydasına görə hörmət əlaməti olaraq əlləri bərabərləşdirib sinəyə tuturlar, ərəblər əllərini sinələrinin üstünə qoyurlar, sirli tibetlilər sağ əllə papaqlarını çıxarır, sol əllərini isə qulağın arxasına qoyub dillərini göstərirlər. Ruslar, avropalılar və amerikalılar salamlaşarkən dost cesti kimi əl verirlər. Sağ əli uzatmaq, yəni silahım yoxdur, niyyətim safdır deməkdir. Fransada qeyri-rəsmi şəraitdə, hətta az tanış olan insanlar belə salamlaşarkən və sağollaşarkən öpüşürlər və yanaqları ilə toxunaraq havaya birdən beşə qədər öpüş göndərirlər. Bir sıra Afrika tayfalarının nümayəndələri üzbəüz gəldikləri adama tüpürürlər, bu, onlarda ədəbsizlik yox, hörmət göstəricisi sayılır.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 113 (6434) 25 may 2016

# Dolların "buxovlanması" nə vəd edir?

## Ekspertlər bildirirlər ki, hökumət son aylar ərzində bu asılılığın minimuma endirilməsi üçün ciddi qərarlar qəbul edir, ancaq...

**Son vaxtlar ölkədə manatın dollara qarşı məzənnəsi kiçik hissələrlə qalxmaqdadır. Ekspertlər bunu müxtəlif səbəblərlə əlaqələndirirlər. Həmçinin bu prosesin yekununda manatın yenidən kəskin şəkildə dəyər itirəcəyi ehtimalları da var. Ekspertlər dolların bu şəkildə ucuzlaşmasının ölkə iqtisadiyyatına təsirlərini də fərqli şəkildə izah edirlər.**

**Ekspert Fikrət Yusifov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, manatın məzənnəsi ətrafındakı söhbətlər öz aktuallığını bu günə qədər saxlasa da, əslində onun bu ilin sonuna qədər kəskin dəyişəcəyi gözlənilən deyil: "Bunu əsaslandırmaq olar. Bəzi mütəxəssislərin milli valyutanın məzənnəsində ehtimal etdikləri kəskin məzənnə dəyişikliyi gözləntiləri, ilk növbədə neft gəlirlərinin kəskin azaldığı bir şəraitdə, ölkə iqtisadiyyatının real sektorundan ixracın həcminin aşağı olması ilə izah olunur. Bu gün real sektordan ixracın həcmi kifayət qədər deyil. Lakin son 5-6 il ərzində ayrı-ayrı sahələrdə daxili istehsalın artması hesabına bir çox məhsulların idxalının azalması amilini də nəzərdən qaçırmaq olmaz. Əgər biz hansısa məhsula olan tələbatımızı daxili istehsal hesabına tam və ya qismən ödəməyə başlamışıqsa, deməli, həmin məhsulların ölkəyə idxalını və bununla da ölkədən çıxarılan valyutanın həcmini də azaltmış oluruq. Digər tərəfdən, son 7-8 ay ərzində real sektorun inkişafı istiqamətində hökumətin atdığı addımları və bu sahədəki pozitiv dəyişiklikləri də görməmək olmaz. İnhisarçılığın aradan qaldırılması, gömrük sistemində şəffaflığın təmin edilməsi və bütövlükdə bir ilə qədər vaxt ərzində iş adamlarının, sahibkarların fəaliyyət meydanını münbitləşdirən onlarla qərarların qəbul edilməsi çox mətləblərdən xəbər verir. Bu qərarların bir çoxu artıq öz bəhrəsini verməyə başlayıb. Bunun belə olub-olmadığını bilmək üçün hər kəsə, bu qərarlardan sonra real vəziyyətin necə dəyişdiyini bilavasitə iş adamlarından soruşmağı tövsiyə edirik".



**Ekspertin sözlərinə görə, başqa bir məsələ neft amili ilə bağlıdır:** "İqtisadiyyatımız hələ ki neftdən asılılığını istədiyimiz səviyyədə qurtara bilmir. Bu yolda hələ çox işlər görmək lazımdır. Lakin bu gün hökumətin bu istiqamətdə atdığı addımları da dəyərləndirməyi bacarmaq lazımdır. Hökumət son aylar ərzində bu asılılığın minimuma endirilməsi üçün ciddi qərarlar qəbul edir. Gəlin obyektiv olaq. Hər işi öz adı ilə səsləməyi bacaraq. Manatın məzənnəsinin taleyi eyni zamanda bundan sonra dünya bazarlarında neftin qiymətlərinin necə dəyişəcəyi ilə bağlıdır. Son 4 ay ərzində bu qiymətlər 75 faizə qədər arta bilibsə, deməli, bizim ilin əvvəlindən bununla bağlı verdiyimiz proqnozlar tədricən özünü doğrultmağa başlayır. Başqa variant mümkün də deyildi. Neft ölkələri artıq 2 ilə yaxındır ki, neft sənayesinə yatırım etmirlər. Neft sənayesinin necə işlədiyini bilən hər kəsə isə bəllidir ki, burada mütəmadi yatırımlar etmədən hasilatı sabit saxlamaq mümkün deyil. Deməli, bu ilin sonuna qədər neftin qiymətlərində baş verən pozitiv dəyişikliklər davam edəcək. Belə olan halda, neft satışından valyuta gəlirləri bir barel üçün 25 dollar hesabı ilə deyil, bundan ən azı iki dəfə çox olacaq. Bu isə o deməkdir ki, Neft Fondu proqnozlaşdırdığından 2 dəfəyə qədər çox valyuta gəliri əldə edə biləcək. Bu fakt öz-özlüyündə manatın məzənnəsi ətrafındakı narahatçılıqları qabaqlayır".

**F.Yusifov qeyd edib ki, başqa bir məsələ Mərkəzi Bankın manatın tənzimlənən üzən məzənnəsinə müxtəlif formalarda təsir imkanlarının mövcud olmasıdır:** "O, bunu ilk növbədə dövriyyədə olan nağd pul kütləsinin həcmini artırıb-azaltmaqla edə bilir. Manatın məzənnəsinin son aylar ərzində sabitləşməsi fonunda Mərkəzi Bank dövriyyədə olan nağd pul kütləsini tədricən artırmağa başlayıb. Pul təklifinin artırılmasını isə iqtisadi dirçəlişin işartılarının başlanğıcı kimi qiymətləndirmək olar. Bütün bu amillər əsas verir ki, bir daha təsdiq edək ki, yaxın dövrlərdə manatın məzənnəsində hər hansı bir kəskin dəyişikliyin baş verməsi gözlənilən deyil".

**Ekspert Qubad İbadoğlu isə musavat.com-a açıqlamasında qeyd edib ki, dolların ucuzlaşmasının təsiri inflyasiyanın aşağı salınmasına ola bilər. Amma qiymətlərin səviyyəsində artım müşahidə olunmaqdadır:** «Bu, qeyri-monetar amillərin təsiri ilə baş verir. Bu təsirlə də ölkədə bahalıq baş verir, ərzaq mallarının qiymətini artırır. Antiinflyasiya nöqteyi-nəzərindən müsbət effekt verəcək tədbir kimi qiymətləndirilə bilərdi. Amma məsələ burasındadır ki, bunun daha çox neqativ təsirlər var. Nə qədər ki, Azərbaycan manatının dollara nisbətdə məzənnəsi, bazar tarazlığı formalaşmayıb, bir o qədər də Azərbaycanda investisiya qoyuluşunda tərəddüdlər olacaq. Alıcılıq qabiliyyəti aşağı düşəcək. Bu baxımdan da aparılan buxovlayıcı siyasət və dövriyyədə manat qıtlığının yaradılması ümumi daxili məhsulun aşağı düşməsini bir az da sürətləndirəcək. Ona görə də düşünürəm ki, bu, yanlış siyasətdir. Mərkəzi Bank monetar siyasətə yenidən baxmalı, Azərbaycan iqtisadiyyatının tələblərinə yenidən baxmaqla işgüzar aktivliyi təmin edən alıcılıq qabiliyyətini stimullaşdıran siyasət yeritməyi düşünməlidir".

❑ **Röya RƏFİYEVA**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Jurnalistin mənzilini qarət edənlərdən xəbər yoxdur

**Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları jurnalist, APA agentliyinin əməkdaşı Mübariz Aslanovun mənzilini qarət edən şəxslərin izinə düşə bilmir. Hüquq-mühafizə orqanlarına yaxın mənbədən aldığımız məlumata görə, jurnalistin mənzili ilə yanaşı, rayon ərazisində digər bir neçə mənzil də qarət olunub. Polis hazırda qarətçi və ya qarətçilərin izinə düşmək üçün müvafiq tədbirlər görür.**

Qeyd edək ki, jurnalistin kirayədə yaşadığı Nəsimi rayonu Asif Məhərrəmov küçəsi ev 24, mənzil 11 mayın 17-də qarət olunub. Mənzilə açar seçmə yolu ilə daxil olan şəxs və ya şəxslər 540 manat və təxminən 8 min manat dəyərində qızıl-zinət əşyaları oğurlayıblar. Hadisə baş verən vaxt evdə heç kim olmayıb. Olayla bağlı Daxili İşlər Nazirliyinin "102" xidmətinə məlumat verilib. Daxil olan məlumat əsasında Nəsimi Rayon Polis İdarəsinin 19-cu Polis Bölməsinin əməkdaşları hadisə yerinə baxış keçirib, iş üçün əhəmiyyət kəsb edən məlumatlar toplayıblar. Lakin bu günə qədər qarətçilərin izinə düşmək mümkün olmayıb.

❑ **E.MƏMMƏDƏLİYEV**


**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**

tibb elmləri namizədi, təcrübəli həkim

**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**

**Tel (051) 634-40-01**



**Elan**

**3-cü Xriptova A.Ağayev küçəsində yaşayan Xudaverdiyev Əlisahib Əsəd oğluna məxsus çıxarış itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Bakı şəhəri Xətai rayon Levanevski keçəsi ev - 12D, Xüsusi mülkiyyət NZS qəsəbəsi, «Dalğa plaza» şadlıq sarayının arxası, 4 sotun içində 5 otaqlı ev, 200 m/kvadrat, yüksək keyfiyyətlə tikilmiş ev. Təcili satılır: 80.000 dollar.**

**Evin tikinti pasportu və kupçası var.**

**Əlaqə telefonu: 050 393-39-69. Sadiq.**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Son günlər sosial şəbəkələrdə Bakı bazarlarında satılan pomidorların zərərli olması, insan səhhətinə mənfi təsir edən dərmanla yetişdirilməsi ilə bağlı iddialar müzakirə olunur. Deyilənə görə, kal pomidorun vaxtından daha tez qızarması üçün ona xüsusi dərman vurulur və bu dərman 10 günə qızarmalı olan pomidorun 1-2 günə qızarmasına səbəb olur. Həmin dərman pomidorun içinin yığılmasına səbəb olduğundan daha sonra iynə ilə silikon effekti verən və pomidorun daha ətli olmasını təmin edən başqa bir dərman vurulur.**

# Pomidor yeməyin, öldürür...

## Bakıda pomidor yetişdirilməsi ilə bağlı şok iddialar və gerçəklik ...






"Yeni Müsavat" qəzeti olaraq bu deyilənləri ictimailəşdirmək qərarına gəldik və qısa bir araşdırma apardıq. Bəlli oldu ki, ağız dadı ilə yediyimiz pomidorlar əslində... bizi ölümə aparan zəhər imiş. Şitil mərhələsində vurulan həşəratlar əleyhinə dərmanlar, daha sonra tez qızarması üçün sürtülən xüsusi maddələr, silikon iynələr və bilmədiyimiz daha nələr...

Əvvəlcə, bir alıcı gözü ilə Bakı bazarlarındakı pomidorların mənbəyini araşdırdıq. "8-ci kilometr" bazarında həm topdan, həm də pərakəndə satış həyata keçirən satıcılarla söhbətimizdən məlum oldu ki, pomidorlara dərman vurulması hər kəsə bəllidir.

Bazara bu məhsullar əsasən Bakının Zirə kəndindən, Şəmkir rayonundan, İrandan və Türkiyədən gətirilir. Ancaq əhali yerli məhsullara üstünlük verdiyindən Türkiyədən gətirilən pomidorlar da yerli məhsul adı ilə alıcıya sırınır. Yerli Zirə pomidorlarının qiyməti 1.5-2.5 manat arasında dəyişdiyi halda, Şəmkir pomidoru 1.5 manat, Türkiyə pomidoru isə 1.2 manata idi. Görüntü baxımından da bu məhsullar bir-birindən fərqlənir. Zirə pomidorları əksərən üstündəki saplaqla birlikdə satışa çıxarılır və təzə olduğu hiss olunur. Lakin əksər Zirə pomidorlarını kəsərkən içinin yaşıl olduğu və dənələrinin hələ də göy qaldığını görmək olur. Bunun səbəbi isə yuxarıda qeyd etdiyimiz qızardıcı dərmandır. Həmçinin pomidorun içində boşluq olmasının da səbəbi odur. Şəmkir pomidorları isə nisbətən ətli pomidorlardır və ölçüsünə görə daha iridir. Satıcılar hazırkı fəsildə bazardakı məhsulların hamısının istixanalarda yetişdirildiyini dedilər.

Bəzi satıcılar isə artıq Bakıda havaların isti keçdiyini, bu baxımdan istixanaların örtüklərinin qaldırıldığını bildirdilər.

Məhsula vurulan gübrələrə gəlincə, bəzi satıcılar şitil mərhələsində pomidorun şitilinin yarpaqlarının həşəratlar tərəfindən məhv edilməməsi üçün "göy daş" adlı dərman vurulduğunu dedilər. Bu məqsədlə istifadə olunan bir neçə dərman növünün olduğunu bildirdilər. **Ceyran adlı satıcı qadın** məhsulun tez qızarması üçün ona el arasında "bit dərmanı" kimi tanıdığımız dərmanın su ilə qarışdırılmış məhlulunun sürtüldüyünü dedi. Onun sözlərinə görə, bu maddə yüksək istilik effekti yaratdığından qısa zamanda pomidorun qızarmasına səbəb olur.

Müşahidə apararkən də bir çox pomidor məhsullarında iynə izlərinin olduğunu gördük.

Həmçinin bazarda yeşiklərlə Türkiyədən gətirilən pomidorlar aşkarladıq. Əksər alıcılar fikir verməsə də, üzərində "Aylinberk" yazılan qablaşmada olan məhsullar Türkiyədən gətirilmişdi ki, bunu satıcı da etiraf etdi.

**Uzun müddət Bakının Maştağa kəndində istixanalarda pomidor yetişdirən Əhliman Şahbazov "Yeni Müsavat"a danışarkən bildirdi ki, bəzi fermerlər məhsulun tez qızarması üçün müxtəlif üsullara əl atırlar:** "Bu cür dərmanlar çoxdur. Həmin dərmanlar məhsulun bir neçə dəfə tez qızarmasına kömək edir. Həmin dərmanın dozasını düzgün müəyyənləşdirmək önəmlidir. Çünki normadan artıq olanda məhsulun içinin xarlamasına, qurumasına səbəb olur. Həmin pomidor çəkidə də az gəlir. Həmçinin kəsəndə içində boşluq görmək olar. Belə olanda da başqa bir dərman vururlar. O da silikon effekti verir, pomidoru şişirdir. Bu dərmanlar hamısı ziyanlıdır və bundan bütün fermerlər istifadə edirlər. Kim desə ki, mən dərmansız pomidor gətirmişəm bazara, yalan deyir".

**Ə.Şahbazov onu da iddia etdi ki, Zirə kəndində pomidor və xiyar məhsullarının tez yetişməsi üçün ona kanalizasiya suyu da verirlər:** "Eşitdiyimə görə, məhsulun tez yetişməsi və iri olması üçün istixanalara kanalizasiya suyu da verirlər. Normalda pomidor şitili 3 aya yetişir, bir ay da qızarması üçün vaxt lazımdır. Ancaq kal pomidor hazır olan kimi, dərmanla bir-iki günə qızardıb bazara çıxarırlar".

**Azad istehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da "Yeni Müsavat"a açıqlamasında hazırda bazara çıxarılan tərəvəzlərdə sözügedən problemlərin olduğunu vurğuladı:** "Bizə məlumat daxil olub ki, pomidora və qarpıza iynə vurulur, pomidora dərman çilənir. Bu məlumatlar yayılsa da, konkret hallar üzə çıxmır. Bizdə də konkret faktlar yoxdur. Ancaq belə dərmanlardan istifadə olunması istisna deyil. Biz daha çox pomidorlarda nitritlərin miqdarının normadan çox olmasını yoxlayırıq. Bizdə ziyanverici həşəratlar əleyhinə verilən gübrələrdən pomidorun tərkibinə keçən zərərli maddələrin miqdarını ölçən cihaz var, onunla müəyyən edirik. Qış aylarında təxminən pomidorların 10 faizində bu maddələrin miqdarının çox olması müşahidə edilir".

**Tibb elmləri doktoru Adil Qeybulla ilə məhsulun tez yetişməsi üçün verilən dərmanların insan səhhətinə zərərli olduğunu bildirdi:** "Azərbaycan ərazisinə genetik modifikasiya olunmuş xeyli ərzaq daxil olub. Sizin bazarlarda piştaxta arxasında xeyli meyvə-tərəvəz görə bilərsiniz ki, onlar sanki bir qəlibdən çıxıb. Pomidorun genini dəyişdirməklə, onu konkret bir temperaturda bir neçə il saxlamaq mümkündür. Yəni bu temperaturdan adi rejimə keçən kimi pomidor dəyir və xarab olmağa başlayır. Əslində bu maddələrin orqanizmə nə dərəcədə ziyanlı olması tam bəlli deyil, amma müzakirə olunan məsələdir. Pomidorun süni şəkildə qızardılmasına gəlincə, bu cür maddələr mövcuddur və istifadə olunur. Bakı Şəhər Gigiyena və Epidemiologiya Mərkəzindən bu cür faktlarla bağlı sorğu eləmək lazımdır. Əgər varsa, onunla mübarizə aparılmalıdır".

**A.Qeybulla hesab edir ki, meyvə və tərəvəzlərin yeyilməsi mövsümi xarakter daşımalıdır:** "Vaxtından əvvəl, süni şəkildə yetişdirilmiş məhsulların qəbulu yolverilməzdir. Hər meyvəni öz vaxtında yemək daha yaxşıdır. Bir çox xəstəliklər var ki, hazırda geniş yayılır. Ancaq biz bilmirik ki, həmin xəstəliklərin kökündə bu faktor dayanır, yoxsa yox".

**❑ Nərgiz LİFTİYEVA**
**❑ Fotolar müəllifindir**

# Gürcüstanda turizm şərtləri Azərbaycanı üstələyir

## Məmməd Əliyev: "Bizdə qonşu ölkədəki kimi uyğun, cəlbedici qiymətlər yoxdur"

**Yay fəslinin yaxınlaşması insanları istirahət məkanları seçmək haqqında düşündürür. Müxtəlif turpaketlərlə maraqlanan əhali həm sərfəli, həm də keyfiyyətli yerə gedib yorğunluğunu atmaq istəyir. Hazırda çoxları dincəlmək üçün sərfəli yer kimi Gürcüstanı seçirlər. Çünki Azərbaycandakı turpaketlərin qiyməti "əl yandırır".**

Azərbaycanın turizm şirkətləri Türkiyədə istirahətin təşkili məsələsində də Gürcüstanla rəqabətdə uduzmağa davam edir. İnsanlar daha ucuz səyahət paketlərini Tiflis üzərindən əldə etməyə çalışırlar.

**"FlyTravel" turizm şirkətinin direktoru Məmməd Əliyev** Azərbaycanda qiymətlərin həddən artıq baha olduğunu dedi: "Batumiyə 5 günlük avtobusla turun qiyməti 150-160 manatdır. Tura aparıb gətirmək, hoteldə gün ərzində 3 dəfə yeməklə qalmaq daxildir. Bu avtobuslar Gəncədən çıxır. Bizdə qonşu ölkədəki kimi uyğun, cəlbedici qiymətlər yoxdur. Onlar qiymətləri ucuz qoyurlar. Bizdə 2 nəfərin bir gecə qalması yalnız səhər yeməyi daxil, 60 manatdır. Amma Gürcüstanda 5 günü 60 manatdır. Azərbaycanda Nabran, Quba, Qəbələ və demək olar ki, bütün yerlərdəki turistik məkanlar hamısı bahadır. Misal üçün, Qubada 4 ulduzlu hotellər 2 nəfərin 1 gün istirahəti üçün səhər yeməyi daxil, minimum 60-70 manata başa gəlir. Bundan ucuz olmur. Qiyməti ucuzlaşdırsalar yerli turistlər xaricə yox, elə öz bölgələrimizə gedərlər. Amma bunu etmirlər.




Hoteldə qiymət 20 manata olsa, ona sərf edir. Amma etmirlər".

**İqtisadçı ekspert Rəşad Həsənov turizm məsələsinə kompleks yanaşmanın vacib olduğunu dedi:** "Manatın dollarla müqayisədə öz mövqeyini itirməsi əslində Azərbaycanın turizm sektoruna bir hədiyyə idi. Çünki Azərbaycanda turistlər xərcləri manatla ödəyirlər, hazırkı məzənnə ilə kifayət qədər az dollar xərcləyirlər. Azərbaycan turizmi böyük neft pullarının yaratdığı ab-havadan tam aralana bilməyib. Qiymət yüksəkliyi müşahidə olunur, xidmətin aşağı səviyyədə olması, iddialı baxışlar və sairə var. Eyni zamanda burada əsas problemlərdən biri bu dövr ərzində rəqabət mühitinin formalaşmamasıdır. Azərbaycanın cənub bölgəsinin turizm potensialının yüksək olmasına baxmayaraq, bu istiqamətdə infrastrukturun zəif olması, yol problemləri Azərbaycanın şimal istiqamətində turizmin dominatlığını formalaşdırıb. Qiymətlər isə həm regionla, həm də ölkədaxili əhalinin gəlirləri ilə müqayisədə bahadır. Bu baxımdan da bu gün müəyyən qədər rəqabət mühitini artırmaq lazımdır. Turizmin inkişafı üçün xüsusi konsepsiya hazırlanmalı və yatırımlar olmalıdır. Azərbaycan turizm sektorunda xarici investisiya demək olar ki, yox səviyyəsindədir. Baxmayaraq ki, 2015-ci ilin devalvasiyaları müəyyən qədər aktivlik görüntüsü yaratmışdı. Türkiyə-Rusiya münasibətlərinin gərginləşməsi Türkiyədə turizm sektorunda qiymətlərin ciddi şəkildə azalmasına gətirib çıxardı. Bu yenə də Azərbaycanın turizm sektorunun bu sferada manevr imkanları etməsinə imkan vermədi. O cümlədən də Gürcüstanda turizm sektoru son dövrlərdə kifayət qədər inkişaf edib. Müqayisə aparsaq görərik ki, Gürcüstana daxil olan turistlərin sayı ölkə əhalisinin sayından çoxdur. Amma Azərbaycana daxil olan turistlərin sayı Azərbaycan əhalisindən dəfələrlə azdır. Daxili turizm potensialından belə Azərbaycan istifadə edə bilmir".

**İqtisadçı ekspert turizm sahəsindəki böyük problemlərdən birinin də viza məsələsi olduğunu dedi:** "Azərbaycan Avropa ölkələri ilə viza sadələşdirilməsi məsələsini tamamilə başa çatdıra bilməyib. Bir çox hallarda Avropadan Azərbaycana səfər etmək üçün viza prosedurları ağır olur. Son dövrlərdə bu istiqamətlərdə müəyyən addımlar atılıb. Amma buna baxmayaraq müəyyən ölkələrlə qarşılıqlı əlaqələrin olmaması, digər çətinliklər var. Hədəflər Azərbaycanda az gəlirli insanların normal istirahət mühitinin təmin edilməsi istiqamətində qurulmalıdır. Transport məsələsi də önəmlidir. Azərbaycana hansı ölkələrdən daha çox turist cəlb etmək imkanı varsa, AZAL bu istiqamətlərdə daha sərfəli qiymətlərlə uçuşları təklif etməlidir".

**❑ Günel MANAFLI**